# ODLAR YURDU UNİVERSİTETİ

**“İqtisadiyyat və idarəetmə” fakültəsi**

**“İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrası**

**Bakalavriat səviyyəsinin**

**050201 – “Beynəlxalq münasibətlər”**

**ixtisası üzrə**

# TƏHSİL PROQRAMI



**Bakı – 2020**

# ODLAR YURDU UNİVERSİTETİ

## Bakalavriat səviyyəsinin
## 050201 – “Beynəlxalq münasibətlər”
## ixtisası üzrə

# TƏHSİL PROQRAMI

*Təhsil proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyinin F-363 nömrəli 07.08.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin 050201– “Beynəlxalq münasibətlər” ixtisası üzrə Təhsil Proqramı əsasında hazırlanmış,* Odlar Yurdu Universitetin Elmi *Şurasının 03.09.2020-ci il tarixli (protokol №1) iclasında təsdiq edilmişdir.*

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **“050201 Beynəlxalq münasibətlər”** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı”na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq;

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **“050201 Beynəlxalq münasibətlər”** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma bacarıqlarına;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə qabiliyyətlərinə;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək bacarığına;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyəti;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuruna və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;

- Sistemli düşünə bilmək, sistemləri təhlil edərək elementlər arasında əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemli əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək səriştəsi;
- Strateji baxış formalaşdırmaq, fəaliyyətin mümkün nəticələrini görə bilmək (mümkün, ehtimal edilən və arzu olunan), dərk etmək və qiymətləndirmək qabiliyyəti, fəaliyyətin gələcəyi haqqında aydın fikirə malik olmaq, risk və baş verə biləcək dəyişiklikləri nəzərə almaq, qərarların qəbulunda yenilikçi və yaradıcı olmaq bacarığı;
- Başqalarına qulaq asmaq, dinləmək, onların ehtiyaclarını, hərəkətlərini anlamaq, fikirlərini öyrənmək, yaranan münaqişələri həll etmək, problemlərin həllinə yönəlik kollektiv əməkdaşlıqda iştirak və fərqli yanaşmalardan istifadə bacarığı;
- Qəbul edilmiş norma, yanaşma və fikirləri tənqidi təhlil etmək, öz baxışlarına və fəaliyyətinə tənqidi yanaşmaq, cəmiyyətdə öz rolunu tənqidi qiymətləndirmək bacarığı.

2.2. ***Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:***

- Müasir dünyanın siyasi xəritəsi, siyasi-ərazi strukturu, onun dinamikası və bütün qitələr üzrə ən yeni transformasiyalar haqqında adekvat təsəvvürə malik olaraq, coğrafi biliklər və arqumentlər əsasında beynəlxalq siyasi prosesləri təhlil etmək və qiymətləndirməyi bacarmaq; (PK-1)
- Beynəlxalq münasibətlər sisteminin formalaşmasını, təkamülünü və müasir beynəlxalq münasibətlər sistemində baş verən hadisələrə təsirini təhlil etmək, tarixi və müasir siyasi hadisələr və proseslər arasında əlaqəni və varisliyi müəyyən etməyi bacarmaq; (PK-2)
- Beynəlxalq münasibətlər tarixi sahəsində dərin biliklərə malik olaraq, müasir beynəlxalq münasibətlər sistemində baş verən proseslərin səbəblərini müəyyən etmək və dövlətlərin, birliklərin, hökumətlərarası və qeyri-hökumət təşkilatlarının qarşılıqlı münasibətlərini təhlil etməyi bacarmaq; (PK-3)
- Siyasi-ictimai mütəfəkkirlərin dövlət, hüquq, ictimai və siyasi münasibətlərə dair təlim və nəzəriyyələrini ilkin mənbələr əsasında təhlil edərək, çağdaş beynəlxalq siyasi prosesləri və siyasi institutların fəaliyyətini qiymətləndirmək, habelə mühakimələr və proqnozlar irəli sürməyi bacarmaq; (PK-4)
- Siyasi elmin əsas kateqoriyaları, paradiqmaları, metodları, konsepsiyaları, nəzəriyyələrini mənimsəyərək, siyasətin institusional və qeyri-institusional sferaları, siyasi hakimiyyətin xüsusiyyətləri, siyasi elita və siyasi liderlər, siyasi sistemlər və siyasi rejimlər, siyasi ideologiya, siyasi mədəniyyətlə bağlı təhlillər aparmağı bacarmaq; (PK-5)
- Müxtəlif ölkələrin (Amerika, Avropa, Asiya və Afrika ölkələrinin) siyasi sistemlərini müqayisəli öyrənərək siyasi gücün/hakimiyyətin istifadəsi və bölünməsi, siyasi təzahürlər arasında ümumi və fərqli xüsusiyyətləri müəyyən etmək, sözügedən dövlətlərdə qanunverici-icraedici hakimiyyətlər arasında qarşılıqlı əlaqələri, mövcud olan siyasi rejimləri, mərkəzi və yerli hakimiyyətlər arasında münasibətləri, fəaliyyət göstərən siyasi partiyaları, siyasi prosesləri təhlil etmək və siyasi idarəetmənin həyata keçirilməsində ayrı-ayrı fərdlərin, siyasi qrupların və elitanın rolunu müəyyən etməyi bacarmaq; (PK-6)
- Xarici siyasətin mahiyyəti, qurulma və reallaşma mexanizmi, xarici siyasət sahəsində qərarların qəbul edilməsi prosesinin mərhələləri və bu prosesə təsir edən amilləri təhlil etmə; xarici siyasətə dair nəzəriyyələrdən müxtəlif dövlətlərin xarici siyasət kursunun formalaşmasının və reallaşdırılmasının proqnozlaşdırılması prosesində istifadə etməyi bacarmaq; (PK-7)
- Beynəlxalq siyasi və ilkin elmi araşdırmalar aparmaq üçün sosial elmlərdə geniş yayılmış kəmiyyət və keyfiyyət metodlarından istifadə etmə bacarığına, bu üsul və metodlardan istifadə etməklə optimal qərarlar verə bilmək; tədqiqat istiqaməti üzrə uyğun və etibarlı informasiyanı

fərqləndirməyi bacarmaq; siyasi məlumatların təhlili və sistemləşdirilməsi üçün statistik biliklərə sahib olmaq, kəmiyyət və keyfiyyət məlumatlarını toplamaq, təhlil etmək və proqnozlaşdırmanı bacarmaq; (PK-8)

- Beynəlxalq münasibətlərin əsas nəzəriyyələrini dərindən mənimsəyərək, müasir beynəlxalq münasibətlər sistemində baş verən prosesləri və hadisələri şərh etmək, qlobal, regional və ölkə səviyyələrində beynəxalq problemləri təhlil etmək, beynəlxalq proseslərin səbəb-nəticə əlaqələrini aşkar etmək, izah etmək və proqnozlaşdırmağı bacarmaq; (PK-9)
- Beynəlxalq təhlükəsizlik problemlərinin səbəblərini, mahiyyətini və nəticələrini, habelə onların regional və qlobal aspektlərini dərindən araşdıra bilmək; aparıcı dövlətlərin milli təhlükəsizlik siyasətini təhlil etməyi bacarmaq; (PK-10)
- Müasir dövrdə inteqrasiya və qloballaşma proseslərinin yeni tendensiyalarını müəyyən etmək və nəticələrini proqnozlaşdırma qabiliyyətinə malik olmaq; beynəlxalq təşkilatların strukturu və əməkdaşlıq mexanizmlərinin fəaliyyətini qiymətləndirməyi bacarmaq; (PK-11)
- Müasir münaqişələrin səbəbləri, inkişaf qanunauyğunluqları, nəticələrinə dair nəzəri və praktik biliklər əsasında onların tənzimlənməsi prosesini həyata keçirməyi bacarmaq; (PK-12)
- Azərbaycan Respublikasının xarici siyasət mexanizmi, xarici siyasətinin əsas prinsipləri, prioritetləri, istiqamətləri, müxtəlif dövlətlərlə siyasi, hərbi, diplomatik, iqtisadi və mədəni sahələrdə ikitərəfli münasibətləri, beynəlxalq təşkilatlarla əlaqələri, enerji siyasəti və onun regional və beynəlxalq münasibətlər sisteminə təsirini təhlil etmək; xarici siyasət qarşısında duran əsas çağırışları, riskləri və problemləri müəyyən etmə; xarici siyasətin həyata keçirilən əsas istiqamətləri üzrə proqnozlaşdırmağı bacarmaq; (PK-13)
- Beynəlxalq hüquq münasibətlərinin ayrı-ayrı növlərinin tənzimlənməsi elementlərini, beynəlxalq müqavilələr də daxil olmaqla beynəlxalq hüququn mənbələrinin məzmunu və milli hüquq sistemində yeri, o cümələdən tətbiqi xüsusiyyətlərini, beynəlxalq hüququn əsas prinsiplərinin beynəlxalq-hüquqi tənzimetmədə rolunu, beynəlxalq təşkilatların və beynəlxalq məhkəmə qurumlarının beynəlxalq və milli hüquqi tənzimetmədə əhəmiyyətini, nəhayət beynəlxalq hüququn ayrı-ayrı sahələrinin əsas xüsusiyyətlərini və istiqamətlərini bilmək; (PK-14)
- Beynəlxalq hüququn prinsip və normalarını beynəlxalq proseslərin və hadisələrin təhlilində və qiymətləndirməsində tətbiq etməyi bacarmaq; (PK-15)
- İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi göstəriciləri, problemləri və prosesləri bilmək; milli iqtisadiyyatın makroiqtisadi mənzərəsini, sosial-iqtisadi göstəricilərin dinamikasını, iqtisadi siyasətin əsas konturlarını bilmək, sektorial təhlil aparmağı bacarmaq; iqtisadi təhlil, makroiqtisadi diaqnostika sahəsi üzrə baza biliklərə sahib olmaq və təhlil etməyi bacarmaq; milli iqtisadiyyatların beynəlxalq iqtisadiyyatdakı rolu, müxtəlif ölkələrin iqtisadiyyatını müqayisəli şəkildə təhlil etməyi bacarmaq; (PK-16)
- Beynəlxalq iqtisadiyyat, beynəlxalq ticarət, beynəlxalq biznes, tədiyə balansı və beynəlxalq maliyyə ilə bağlı anlayışları bilmək; transmilli korporasiyaların fəaliyyəti, beynəlxalq iqtisadi təşkilatlarla bağlı biliklərə sahib olmaq; beynəlxalq proseslərin öyrənilməsi və təhlilində iqtisadi amillərin və qanunauyğunluqların təsirini və rolunu müəyyən etmə; beynəlxalq iqtisadi prosesləri təhlil etmə və bu proseslərin ümumi inkişaf tendensiyalarını proqnoz etməyi bacarmaq; (PK-17)
- Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdid yaradan əsas təhlükələr və riskləri müəyyən etmək və qiymətləndirmək, bu təhlükə və riskləri idarə etmək və tənzimləməyi bacarmaq; (PK-18)

- Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilmək, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmaq; (PK-19)
- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işinin qurulmasını bilmək və liderlik prinsiplərinə yiyələnmək; (PK-20)
- Layihələrin hazırlanması idarə edilməsində iştirak etmək və digər çox istifadə olunan proqram təminatlarından istifadəni bacarmaq, iş həyatında şifahi və yazılı kommunikasiya vasitələrindən istifadə etməyi bacarmaq; (PK-21)
- Media materialları ilə işləmək, müəyyən mövzular üzrə araşdırmalar aparmaq, faktiki materialları toplamaq, ümumiləşdirmək, nəticə çıxarmağı bacarmaq; (PK-22)
- Strateji düşüncə tərzini formalaşdırmaq, strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; informasiya resurslarının strateji idarəolunması bacarıqlarına; strateji idarəetmə metodlarını tətbiq etməyi bacarmaq. (PK-23)
- Beynəlxalq münasibətlər və dünya siyasəti ilə bağlı konkret problemləri və məsələləri dərindən təhlil etmək səriştəsinə malik olmaq; (PK-24)
- Müasir diplomatiyanın formalaşması, məqsəd və vəzifələrini, əsas inkişaf istiqamətlərini, strukturunu və mexanizmlərini bilmək, protokol və etiket qaydalarını icra etməyi bacarmaq, aparıcı ölkələrin diplomatik xidmətlərinin təşkilini bilmək, diplomatik sənədləri hazırlamağı bacarmaq; (PK-25)

## 3. Təhsil Proqramının strukturu

3.1. “**050201 Beynəlxalq münasibətlər**” ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycanın tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranmasını, mərhələlərini, formalaşmasını və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin güclənməsində siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün müxtəlif tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, | 4 |

| | | |
|---|---|---|
| | akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4 | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | 6 |
| 4.1 | **Fəlsəfə**<br>Bu fənn fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri, varlıq haqqında fəlsəfi təlim, materiya anlayışı. Müasir elm materiyanın quruluşu haqqında, hərəkət. Məkan və zaman, dialektikanın əsas qanunları və kateqoriyaları, fəlsəfədə şüur problemi, insanın fəlsəfi anlamı, təbiət və cəmiyyət, idrak və onun strukturu, elmi idrak və onun metodları, yaradıcılıq və intuisiya, elmin etikası, sosial idrakın spesifikliyi. Cəmiyyət özüinkişaf edən sistemdir, ictimai həyatın əsas sferaları. İqtisadi həyatın fəlsəfi səpkisi, cəmiyyətin sosial sferası, siyasi həyatın fəlsəfi təhlili, cəmiyyətin mənəvi həyatı, tarixi prosesin subyektləri və hərəkətverici qüvvələri, mədəniyyət və sivilizasiya, şəxsiyyət və sosial dəyərlər təhlil və tədqiq edilir. | 3 |
| | **Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları**<br>Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan dövlətinin konstitusiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları. | |
| | **Məntiq**<br>Məntiq fənni insana imkanları obyektiv qiymətləndirməyə, tez və düzgün qərar verməyə, fikirləri aydın şəkildə ifadə etməyə, həmsöhbəti düzgün arqumentlərdən istifadə edərək inandırmağa, qeyri-müəyyən vəziyyətlərdən uzaq olmağa kömək edir. Bu fənn məntiqi düşünmə qabiliyyətini qiymətləndirir, məntiqi qanunauyğunluqları qavramaq və tətbiq etmək bacarığını ölçür və müxtəlif sahələrdə məlumat fondunun nə qədər zəngin olduğunu öyrənməyə imkan verir. | |
| | **Etika**<br>Bu fəndə etik fikir, onun təkamülünün əsas mərhələləri: Qədim Hindistan və Çində etik fikir, antik dövrdə etik fikir, orta əsrlər və yeni etik fikir. Azərbaycanda etik fikir, islam etikası, əxlaqın mahiyyəti və əsas funksiyaları, əxlaq və ictimai şüurun digər formaları, əxlaqi şüur və fəaliyyət, etikanın əsas kateqoriyaları: xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, xoşbəxtlik və həyatın mənası, tətbiqi etika və peşə etikası haqqında məlumat verilir. | |
| | **Multikulturalizm**<br>Hər bir fənnin, elmin öyrənilməsi onun obyektinin, predmetinin və məqsədinin müəyyən edilməsindən başlayır. Bu isə öz növbəsində elmin məzmununun açıqlanmasına kömək edir. Elmin obyekti və predmeti birbirilə sıx bağlıdır. Lakin onları bir-birilə eyniləşdirmək düzgün deyil. Elmin obyektini insanın idraki fəaliyyəti vasitəsilə dərk olunan reallıq təşkil edir. Obyektin bilavasitə tədqiq olunan xüsusiyyətləri, əlamətləri, tərəfləri isə elmin predmeti | |

| | | |
|---|---|---|
| | kimi çıxış edir. Elmin obyekti onun predmetinə münasibətdə daha genişdir. Daha konkret desək, elmin predmeti onun obyektinin müəyyən bir hissəsi kimi obyektin bu və ya digər elm sahəsi üçün müəyyən elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edən xüsusiyyətlərini, əlamətlərini, tərəflərini əks etdirir. Elmin predmeti subyektin, yəni tədqiqatçının obyektə münasibətini ifadə edir. O, subyekt tərəfindən reallığın hansı xüsusiyyətlərinin və əlamətlərinin öyrənildiyini göstərir. Elmin obyekti və predmeti haqqında yuxarıda deyilənləri nəzərə alaraq “Multikulturalizm” fənninin obyektini və predmetini müəyyən etmək olar. “Multikulturalizm” fənninin obyektini çoxmədəniyyətlilik təşkil edir. Əvvəlki yarımfəsildə qeyd olunmuşdur ki, çoxmədəniyyətlilik məfhumu sözün geniş mənasında işlədilən multikulturalizm məfhumunun məzmununu əks edir və o, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəliflikləri, eləcə də bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərləri ehtiva edir. “Multikulturalizm” fənninin predmetinə gəldikdə isə, cəmiyyətdəki çoxmədəniyyətliliyin, yəni etnik, irqi, dini və mədəni müxtəlifliklərin, bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlərin qorunmasının yollarını öyrədir. Fənnin predmetinin tərifində onun məqsədi aydın şəkildə özünü büruzə verir. Müasir multikultural cəmiyyətdə etnik, irqi, dini və mədəni müxtəlifliklərin, həmçinin bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlərin qorunmasının yollarının müəyyən edilməsi “Multikulturalizmə giriş” fənninin məqsədidir.“Multikulturalizm” fənninin obyekti olan çoxmədəniyyətliliyi digər fənlər də öyrənə bilər. Məsələn, çoxmədəniyyətlilik fəlsəfə, sosiologiya və mədəniyyətşünaslıq kimi elmlər üçün də tədqiqat obyekti qismində çıxış edə bilər. Lakin bu sadalanan elmlərin hər biri çoxmədəniyyətliliyə öz predmetinə uyğun şəkildə yanaşır. Fəlsəfə çoxmədəniyyətliliyin əsasən mahiyyətini, sosiologiya onun cəmiyyətdə formalaşmasını, digər sosial hadisələrlə münasibətlərini, mədəniyyətşünaslıq isə daha çox əhəmiyyətini ön plana çəkir. | |
| | **Sosiologiya**<br>Sosiologiyanın predmeti, funksiyaları və strukturu. Sosioloji fikrin təşəkkülü və tarixi inkişafının əsas mərhələləri. Cəmiyyətin meydana gəlməsi, sosial həyatın təşkilinin tarixi tipləri. Sosioloji tədqiqatların metodologiyası və metodikası. ictimai rəyin sosiologiyası. Şəxsiyyətin sosiologiyası. Sosial strukturun sosiaologiyası. Sosial-ərazi birlikləri, şəhərin və kəndin sosiologiyası. İdarəetmənin sosiologiyası. Sosial institutların sosiologiyası. Ailə və nikahın sosiologiyası. Dinin sosiologiyası. Siyasətin sosiologiyası. Mədəniyyətin sosiologiyası. İdeoloji münasibətər və insanların sosial fəaliyyəti. Sosial ekologiya | |
| 4.2 | **İnformasiya texnologiyaları (ixtisas üzrə)**<br>İnformasiyanın təmini və emal edilməsi. İnformasiya texnologiyaları. İnformasiyanın predmeti və məzmunu. İnformasiya prosesləri və onun avtomatlaşdırılması. İnformasiyanın tədqiqinə yanaşma aspektləri. İnformasiya sistemləri. İnformasiya sistemlərinin strukturu və əsas obyekti. İnformasiya sisteminin aparat və proqram hissəsi. Müxtəlif əlamətlərə görə informasiya sistemlərinin təsnifatı. İnformasiya sistemlərinin əsas komponentləri. Onların fəaliyyət sxemləri. İnformasiya sistemlərinin inkişaf meylləri. Rəqəmli hesablama sistemləri. Kompüterlərin qurulma prinsipləri. Əmr anlayışı. Kompüterlərin arxitekturası və strukturu. Kompüterlərin məntiqi strukturunu öyrədir. Müxtəlif növ kompüter qurğuları və şəbəkə texnologiyaları daxil | 3 |

| | | |
|---|---|---|
| | olmaqla informasiya texnologiyalarının (İT) əsasları təqdim olunur. İkilik say sistemləri kimi müxtəlif məlumatların təqdimetmə sxemləri əhatə olunur. Bu kurs tələbələrin İT mühitində uğurlu mütəxəssis olmaları üçün lazım olan alətlər və tətbiqlərə geniş bir giriş təqdim edir. Tələbələr insan-kompüter qarşılıqlı fəaliyyətinin əsas məlumat texnologiyalarını, məlumatların idarə edilməsini, proqramlaşdırma, şəbəkələşməni, veb sistemləri və texnologiyalarını, habelə məlumat təminatı və təhlükəsizliyini araşdıracaqlar. İT sahəsinin bəzi vacib elementləri ilə iş təcrübəsi müxtəlif laboratoriya tapşırıqları ilə əldə edilir. | |
| | **İnformasiyanın idarə edilməsi**<br>İdarəetmədə informasiya sistemlərindən istifadənin əsasları, Şirkətin informasion infrastrukturu, Müştərilərlə münasibətlərin idarə edilməsinin elektron, sistemlərinin inkişafının təhlili, İnformasiya sistemləri və idarəetmə, Müəssisə modelləri sistemi, Müəssisələrin müştərilərlə qarşılıqlı əlaqələri sisteminin quruluşu və yaradılması prinsipləri, İnformasiya texnologiyalarından istifadə etməklə şirkətin strategiyasının reallaşdırılması, İnformasiya sistemləri xidmətlərinin idarə edilməsi: funskiyalar, proseslər, ölçmələr, İnformasiya sistemləri xidmətinin nəticəliliyinin ölçülməsi, İnformasiya sistemlərinin fəaliyyəti və inkişaf etdirilməsi xərclərinin qiymətləndirilməsi, İnformasiya texnologiyaları servisləri və biznes üçün sahibolmanın icmal dəyəri, İnformasiya texnologiyalarının inkişafı layihələri və təşkilatların yenidən qurulması, Mürəkkəb informasiya sistemlərinin tətbiqinin standart metodikaları, Müştərilərin idarə edilməsinə yönəldilmiş şəbəkə təminatı öyrədir. | |
| | **Sahibkarlığın əsasları və biznesə giriş**<br>Sahibkarlıq mühiti və rəqabəti, kiçik və orta sahibkarlıq, sahibkarlıq fəaliyyətində vergiqoyma, qiymət siyasəti, menecment və marketinq sistemi. Biznesin təşkilati-hüquqi formaları. GZİT təhlil, sahibkarlığın xarici və daxili mühiti. Kommersiya, maliyyə, məsləhət, istehsal sahibkarlığı. Uçot, yenidən bölüşdürmə, stimullaşdırıcı, balanslaşdırıcı və istehsalın yerləşdirilməsi. | |
| | **İxtisas fənləri** | **120** |
| 5 | **Siyasi coğrafiya**<br>Fənlərarası xarakterə malik bu kurs çərçivəsində tələbələrə fiziki və mədəni-coğrafi amillərlə siyasi proseslər arasında əlaqələr öyrədilir; siyasi coğrafiyanın əsas anlayışları, kateqoriyaları, istiqamətləri, inkişaf mərhələləri; sərhədlər, onların tipologiyaları, təsnifatı; dünyanın müxtəlif regionlarında dövlətlərin ərazilərinin, onların siyasi-coğrafi sərhədlərinin formalaşması, siyasi quruluşun, daxili və xarici siyasətinin xüsusiyyətlərinin coğrafi amillərlə bağlılığı öyrənilir, əhalinin sosial strukturunda coğrafi fərqlər nəzərdən keçirilir, partiyaların, siyasi qüvvələrin yerləşməsinin, habelə müxtəlif hakimiyyət orqanlarına seçkilərin coğrafi xüsusiyyətləri, əhalinin milli və dini tərkibinin coğrafi əsasları öyrənilir. Kurs çərçivəsində müasir beynəlxalq münasibətlərin və münaqişələrin (xüsusilə daxili münaqişələrin) coğrafi şərtləri (səbəbləri) öyrənilir. | 3 |
| 6 | **Beynəlxalq münasibətlər tarixi**<br>Bu fənn beynəlxalq münasibətlər tarixini sistemli əsasda dörd dövrə bölərək öyrənir. Birinci dövrdə Vestfal sisteminin formalaşmasından Birinci dünya müharibəsinin sonuna qədər olan müddətdə beynəlxalq münasibətlərin əsas prinsipləri, tendensiyaları, hadisələri, problemləri və xüsusiyyətləri, habelə beynəlxalq konqreslərin, konfransların və müqavilələrin rolu və əhəmiyyəti, müasir beynəlxalq münasibətlərə təsirlər öyrənilir. Bundan əlavə qeyd olunan | 16 |

| | | |
|---|---|---|
| | dövrdə müxtəlif sistemlərin və altsistemlərin təşəkkülü, təkamülü, ideoloji, iqtisadi və daxili siyasi amillərin təsirləri yalnız tarixi yanaşma çərçivəsində deyil, həm də siyasi kontekstdə təhlil olunur. İkinci dövrdə ilk qlobal beynəlxalq nizam olan Versal-Vaşinqton sisteminin yaranması, inkişafı və tənəzzülü öyrənilir. Sistemli yanaşma çərçivəsində Avropada, Asiya-Sakit okean regionunda, Yaxın (Orta) Şərqdə, Latın Amerikasında beynəlxalq münasibətlər öyrənilir. Bundan əlavə Millətlər Cəmiyyətinin və başlıca beynəlxalq konfransların – Paris, San-Remo, Genuya, Lozanna, Haaqa, Lokarno, Cenevre, Montre, Münhenin fəaliyyəti, İkinci Dünya müharibəsinin başlanması, gedişi, nəticələri, habelə müharibə illərində keçirilən beynəlxalq konfranslarda qəbul edilmiş qərarlar ətraflı təhlil olunur. Üçüncü dövr Yalta-Potsdam sisteminin formalaşmasından Soyuq müharibənin dağılmasına qədərki dövrü əhatə edir. Sistemli yanaşma çərçivəsində dünyada başlıca siyasi proseslərin inkişaf tendensiyaları, bipolyar sistemin xüsusiyyətləri, qlobal və regional təhlükəsizliyin hərbi-siyasi aspektləri, o cümlədən strateji sabitlik problemləri öyrənilir. Beynəlxalq münasibətlərin qlobal və regional altsistemlərinin fəaliyyətinin xarakterik xüsusiyyətlərinin müəyyən edilməsi, BMT-nin və digər beynəlxalq və regional təşkilatları fəaliyyəti, habelə aparıcı aktorların beynəlxalq münasibətlərin inkişafının əsas tendensiyalarının formalaşmasında rolu öyrənilir. Dördüncü dövr, soyuq müharibə bitdikdən sonra müasir beynəlxalq münasibətlər sisteminin formalaşması prosesini, regional altsistemlərdə hadisələrin inkişaf istiqamətlərini, yeni beynəlxalq təhdidlərin ortaya çıxması və onlara qarşı mübarizə, habelə qlobal sistemdə böhranlar və gücün rolunun artması məsələləri öyrənilir. Beynəlxalq münasibətlər tarixi fənni müasir beynəlxalq münasibətlərin öyrənilməsi və tədqiqi üçün dərin metodoloji və praktik əsas yaradır. | |
| 7 | **Türk xalqlarının müasir tarixi**<br>Bu fənn XIX-XX əsrin hüdudlarında türkçülük ideologiyasının formalaşması, türk dövlətlərinin mürəkkəb beynəlxalq şəraitdə milli dövlətçiliklərini qurmaları və qarşılaşdıqları əsas problemlər, İmperiya siyasəti nəticəsində türk xalqlarının assimilasiyaya və qətliam/soyqırıma məruz qalmaları, Türkiyə Respublikasının XX-XXI əsrlərdə inkişaf tarixi, Soyuq müharibə bitdikdən sonra müstəqil türk dövlətlərinin yaranması və inkişafı, türk dövlətini birləşdirən beynəlxalq təşkilatlar və qurumların fəaliyyəti, habelə çağdaş dövrdə böyük dövlətlərin tərkibində yaşayan türk xalqlarının milli-mədəni inkişaf problemləri öyrənilir. | 3 |
| 8 | **Siyasi fikir tarixi**<br>Bu fənn siyasi təlimlərin yaranması və inkişafı, qədim dünyada siyasi təlimləri, qədim Yunanıstan və Romanın siyasi təlimləri, qədim Hindistan və Çinin siyasi düşüncəsi, Avropa və Şərq dünyagörüşünün fərqləri, şərqdə hakimiyyət və hökmdar haqqında təsəvvürlər, orta əsrlərin sosiomədəni və intellektual özünəməxsusluğu və orta əsrlərin siyasi təlimlərinin xarakterik xüsusiyyətləri, yeni dövrün siyasi düşüncəsində cəmiyyət, dövlət və hüquq, intibah dövrünün ümumi xüsusiyyətləri və xarakteri, siyasətin xüsusi fəaliyyət sahəsi kimi formalaşması, vətəndaş cəmiyyəti haqqında nəzəriyyələr, maarifçilik dövrünün sosial-siyasi ideyalarının ümumi xüsusiyyətləri, hüquqi dövlətdə hakimiyyət bölgüsü nəzəriyyəsi, xalq suverenliyi və birbaşa xalq hakimiyyəti ideyası, alman klassik fəlsəfəsi, XVIII əsrdə ABŞ-da siyasi və hüquqi təlimlər, Almaniya və İngiltərədə XVIII əsrin sonunda siyasi təlimlər, XIX əsrdə Avropada siyasi ideyalar, XX əsrdə Qərbdə siyasi və hüquqi təlimləri və s. tədris edir. Fənn çərçivəsində eyni zamanda Azərbaycanın siyasi fikir tarixi öyrənilir. | 4 |

| | | |
|---|---|---|
| 9 | **Siyasət nəzəriyyəsi**<br>Fənnin çərçivəsində tələbələr siyasi nəzəriyyənin əsas kateqoriyalarını, paradiqmaları, siyasi elmin əsas metodlarını, müasir politoloji konsepsiyalar və nəzəriyyələri, siyasətin institusional və qeyri-institusional sferaları, siyasi hakimiyyətin xüsusiyyətlərini, siyasi elita və siyasi liderləri, dövlət siyasi institut kimi, siyasi partiyalar və ictimai hərəkatları, siyasi sistemlər və siyasi rejimləri, siyasi ideologiya, siyasi psixologiya, siyasi mədəniyyət və siyasi prosesləri öyrənirlər. | 4 |
| 10 | **Müqayisəli siyasi sistemlər**<br>Fənnin məqsədi tələbələrə müasir komparativistika metodlarından istifadə etməklə dünyanın müxtəlif ölkələrinin siyasi sistemləri haqqında biliklər verməkdir. Sözügedən kurs siyasi sistem nəzəriyyəsinə əsas yanaşmaları nəzərdən keçirmək, Amerikanın, Avropanın, Asiyanın və Afrikanın aparıcı ölkələrinin siyasi sistemlərinin xüsusiyyətlərini ətraflı, müqayisəli təhlilini vermək, müxtəlif ölkələrin siyasi mədəniyyətini təhlil etmək imkanını yaradır. Müxtəlif partiya sistemləri və seçki sistemləri müqayisə olunur. Müxtəlif dövlətlərdə qanunverici-icraedici hakimiyyətlər arasında qarşılıqlı münasibətlərin xüsusiyyətləri, müxtəlif siyasi rejimlərin spesifikası, mərkəzi və yerli hakimiyyətlər arasında mövcud olan münasibətlər tədqiq olunur. Kursun uğurlu başa çatması halında tələbələr dünya siyasi sistemlərinin əsas xüsusiyyətlərini, onların fərqli xüsusiyyətlərini müəyyən edə və izah edə biləcəklər. | 4 |
| 11 | **Xarici siyasətin təhlili**<br>Fənn çərçivəsində xarici siyasət mexanizmi, xarici siyasət sahəsində qərarların qəbul edilməsi prosesinin mərhələləri, prosesə təsir edən amillər, müxtəlif dövlətlərdə xarici siyasət qərarlarının qəbul edilməsi prosesinin xüsusiyyətləri və xarici siyasətin proqnozlaşdırılması tədris olunur. Xarici siyasətin təhlili ilə məşğul olan aparıcı dünya (beyin mərkəzləri) mərkəzləri, müxtəlif dövlətlərin xarici siyasət kursunun təhlili, xarici siyasətə aid olan məlumatların/faktların təhlili kimi məsələlər də kursa daxildir. | 4 |
| 12 | **Beynəlxalq münasibətlər nəzəriyyəsi**<br>Bu fənn beynəlxalq münasibətləri öyrənən əsas nəzəriyyələri və yanaşmaları dərindən təhlil edərək öyrənilməsini nəzərdə tutur. Öyrənilən hər bir nəzəriyyənin praktik nümunələr (situasiyalar) üzərində tətbiq olunması kursun tədrisinin əsas hissəsini təşkil edir. Bundan əlavə, beynəlxalq münasibətlərin əsas anlayışları, metodları, strukturu, proseslər, təzahürlər, habelə çağdaş dövrün əsas problemlərinin təhlili kurs çərçivəsində tədris olunur. Beynəlxalq münasibətlərin nəzəriyyəsi beynəlxalq siyasətin öyrənilməsinin metodoloji əsasını təşkil edir. | 8 |
| 13 | **Müasir diplomatiya**<br>Fənnin məqsədi müasir diplomatiyanın beynəlxalq münasibətlərin tənzimlənməsində rolu, tarixi inkişafı və müasir dövrdə məqsəd və vəzifələri, o cümlədən diplomatiyanın əsas anlayış və prosesləri, onun ənənəvi və yeni sahələri haqqında sistemləşdirilmiş biliklər verməkdən ibarətdir. Fənnin tədrisi prosesində tələbələrə diplomatiyanın yeni dövrün çağırışlarına uyğunlaşdırılması, diplomatiyaya nəzəri yanaşmalar, eyni zamanda postbipolyar dövrdə diplomatiyanın xüsusiyyətləri, mexanizmləri nəzərdən keçirilir, ikitərəfli, çoxtərəfli diplomatiyanın səciyyəvi xüsusiyyətləri haqqında biliklər verilir; diplomatik qəbullar, söhbətlər, görüşlər, səfərlər zamanı davranış qaydaları və | 5 |

| | | |
|---|---|---|
| | nitq vərdişləri formalaşdırılır; müasir diplomatiyanı həyata keçirən orqanlar sistemi, onların strukturu, vəzifə və səlahiyyətləri, fəaliyyət istiqamətləri öyrədilir; diplomatik xidmətin təşkilinin müqayisəli təhlili əsasında Amerika, Avropa, Asiya və Afrika dövlətlərinin, həmçinin Azərbaycanın yerli təcrübəsi öyrədilir; tələb olunan ədəbiyyat və internet resurslarından istifadə etmək, sənədlərlə işləmək və onları hazırlamaq bacarıqları aşılanır. | |
| 14 | **Beynəlxalq təhlükəsizlik**<br>Fənninin məqsədi tələbələrə beynəlxalq təhlükəsizlik sistemi haqqında sistemli və hərtərəfli biliklər vermək, müasir beynəlxalq təhlükəsizliyin nəzəri-konseptual, hüquqi əsaslarının, qlobal və transmilli təhlükələr və onlara qarşı mübarizə, silahlanma, silahların məhdudlaşdırılması və tərkisilah problemi, silahlı münaqişələr və beynəlxalq təhlükəsizlik, beynəlxalq informasiya və enerji təhlükəsizliyi, Avropada, Mərkəzi Asiyada, Yaxın və Orta şərqdə, Afrikada, Amerikada, Asiya-Sakit okean regionunda təhlükəsizlik problemləri, habelə aparıcı dövlətlərin milli təhlükəsizlik siyasətinin tədris olunması nəzərdə tutulur. | 6 |
| 15 | **İnteqrasiya prosesləri və beynəlxalq təşkilatlar**<br>Fənn çərçivəsində müasir inteqrasiya nəzəriyyələri, inteqrasiya proseslərinin formaları, növləri, intensivliyi, xüsusilə siyasi inteqrasiya problemi təhlil olunur, beynəlxalq təşkilatların yaranma tarixi, beynəlxalq təşkilatların təsnifatı və növləri, onların strukturu və fəaliyyəti, həmçinin qlobal əməkdaşlıq perspektivləri tədris olunur. Tədris prosesində beynəlxalq hökumətlərarası təşkilatlarla bərabər aparıcı beynəlxalq qeyri-hökumət təşkilatlarının strukturu və fəaliyyəti öyrənilir. Fənnin tədrisinin məqsədi tələbələrə müasir dünyada qlobal siyasi, iqtisadi və mədəni birliyin – qlobal cəmiyyətin formalaşdırılması məsələlərinə dair nəzəri – praktik dünyagörüşünün formalşadırılması və biliklərin verilməsidir. | 4 |
| 16 | **Müasir münaqişələr və sülh prosesi**<br>Fənn çərçivəsində münaqişələrə, xüsusilə vətəndaş münaqişələrinə/müharibələrinə dair müasir nəzəriyyələrin təhlil edilməsi, bu nəzəriyyələrin praktik münaqişələr üzərində tətbiq edilərək öyrənilməsi, XX əsrin sonu – XXI əsrdə baş verən münaqişələrin səbəbləri, növləri, formaları və onların həlli texnologiyaları haqqında biliklərin mənimsənilməsi, xüsusilə daxili münaqişələrin dünyada daha geniş yayılmasının səbəbləri, növləri, dünyanın müxtəlif regionlarında inkişaf dinamikası və beynəlxalq münasibətlərə təsirlərinin öyrənilməsi nəzərdə tutulur. Bundan əlavə fənnin tədrisi münaqişələrin tənzimlənməsinin və həllinin müasir dövrdə geniş yayılmış diplomatik-siyasi və xarici müdaxilə üsullarının dərindən təhlil edilməsini ehtiva edir. | 4 |
| 17 | **Azərbaycan Respublikasının xarici siyasəti**<br>Fənnin tədrisi Azərbaycan Respublikasının xarici siyasət mexanizmi, strukturu və xarici siyasət resursları, Azərbaycan Respublikasının xarici siyasətinin nəzəri-konseptual əsasları, əsas prinsipləri, prioritetləri, istiqamətləri, müxtəlif dövlətlərlə siyasi, hərbi, diplomatik, iqtisadi və mədəni sahələrdə ikitərəfli münasibətlərinin öyrənilməsini, ölkənin ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirilən diplomatik-siyasi fəaliyyətin, beynəlxalq təşkilatlarla əlaqələrin, müxtəlif beynəlxalq qurumların fəaliyyətində iştirakın, enerji siyasəti və onun regional və beynəlxalq münasibətlər sisteminə təsirinin Azərbaycan lider dövlətə çevrilməsi prosesinin təhlil edilərək öyrənilməsini | 5 |

| | | |
|---|---|---|
| | nəzərdə tutur. | |
| 18 | **Siyasi təhlil və tənqidi təfəkkür**<br>İxtisaslı mütəxəssisin hazırlanması müstəqil təhlil və tədqiqatın aparılması, düzgün qərarların qəbul edilməsi bacarıqlarının formalaşdırılmasını tələb edir. Tələbələr tədris prosesində və peşə fəaliyyətində qarşıya qoyulan konkret məqsədləri və məsələlərin həll etmək üçün bir sıra vacib nəzəri və empirik metodlara yiyələnirlər. Modellərin qurulması; analogiyaların aparılması; deduksiya; fərziyyələrin irəli sürülməsi; abstraksiya; müşahidə; eksperimentin aparılması; sorğuların keçirilməsi, təhlili, ümumiləşdirilməsi və qiymətləndirilməsi; delfi üsulu; kontent analiz; faktların/informasiyanın toplanması, seçilməsi, kompüter vasitəsi ilə emalı, onlar arasında əlaqələrin qurulması; müqayisə; ölçmə; irəli sürülən fərziyyəni yoxlamaq üçün müxtəlif statistik təhlillərdən istifadə bacarığı və s.<br>Fənn çərçivəsində tələbələrdə məntiqi mühakimə yürütmə və tənqidi təfəkkür bacarıqlarını inkişaf etdirilir. Tələbələr deduksiya və induksiya yolu ilə nəticələr çıxarmaq, deduktiv və induktiv arqumentləri müyyənləşdirmək və qiymətləndirmək, səfsətələrin mövcudluğunu aşkar etmək və onlara yol verməmək, tənqidi təfəkkürün əsas komponentlərini müəyyən edə bilmək bacarığına yiyələnirlər. Tələbələrə deduksiya, induksiya və arqumentasiya bacarığını tətbiq edərək şifahi və yazılı nitq vərdişlərini inkişaf etdirmək, məntiqi və tənqidi təfəkkür qabiliyyəti ilə tədqiqat aparmaq vərdişlərinin sintezinə nail olmaq öyrədilir.<br>Bununla yanaşı, fənnin tədrisinə riyazi məntiq elementlərinin, riyazi statistikanın metodlarının daxil edilməsi tələbələrin gələcək təhsili üçün etibarlı zəmin yaradır. | 4 |
| 19 | **Beynəlxalq hüquq**<br>Dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında yaranan münasibətləri tənzim edən beynəlxalq ümumi hüquq çərçivəsində beynəlxalq münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsi xüsusiyyətləri, beynəlxalq hüququn subyektləri və mənbələri, beynəlxalq müqavilələr hüququ, beynəlxalq hüququn prinsipləri, beynəlxalq və milli hüququn qarşılıqlı nisbət məsələləri, beynəlxalq hüquqda məsuliyyət, beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi, beynəlxalq təşkilatlar hüququ, beynəlxalq təhlükəsizlik və xarici əlaqələr hüququ, beynəlxalq hüquqda ərazi, beynəlxalq dəniz hüququ, beynəlxalq hava hüququ, beynəlxalq kosmos hüququ, beynəlxalq iqtisadi hüquq, beynəlxalq ekologiya hüququ, beynəlxalq humanitar hüquq, beynəlxalq cinayət hüququ və beynəlxalq hüququn digər sahələri öyrənilir. Beynəlxalq hüququn hər bir sahəsinin əsas xüsusiyyətlərinin və elementlərinin təhlili Azərbaycan Respublikası milli qanunvericiliyinin təkmilləşdirilməsi nöqteyi-nəzərindən çox əhəmiyyətlidir. | 6 |
| 20 | **İqtisadiyyatın əsasları**<br>Fənn çərçivəsində iqtisadi nəzəriyyənin əsas qanun və kateqoriyaları, iqtisad elminin konsepsiyaları və müasir iqtisadi fikrin əsas istiqamətləri, iqtisadi proseslər, iqtisadi qanunauyğunluqlar, iqtisadi alətlər, iqtisadi mexanizmlər, iqtisadi resurslar, bazar iqtisadiyyatı, bazar iqtisadiyyatında dövlətin rolu və funksiyaları, iqtisadi fəaliyyət, iqtisadi artım, milli iqtisadiyyat və dünya təsərrüfatı, makroiqtisadiyyat, mikroiqtisadiyyat, bazar iqtisadiyyatının modelləri haqqında biliklər əldə olunacaq; bazar iqtisadiyyatının ümumi xarakteristikası | 4 |

| | | |
|---|---|---|
| | verilir və məhdud iqtisadi ehtiyatların səmərəli istifadə olunmasında bazar mexanizminin rolu müəyyənləşdirilir, iqtisadi subyektlərin qərar qəbul etməsini şərtləndirən prinsiplər mənimsənilir. | |
| 21 | **Beynəlxalq iqtisadi münasibətlər**<br>Fənn çərçivəsində dünya iqtisadi sistemi, onun inkişaf prosesləri, qlobal iqtisadi problemlər, müasir dünya iqtisadiyyatının mexanizmi, dünya iqtisadiyyatının inkişafının əsas qanunauyğunluqları, dünya, regional və milli təsərrüfat əlaqələrinin qarşılıqlı asılılığı, iqtisadi qloballaşma şəraitində fəaliyyət göstərən dövlətlərinin beynəlxalq iqtisadi münasibətlər sistemi, beynəlxalq ticarət, beynəlxalq səviyyədə ticarətin tənzimlənməsi, beynəlxalq işçi qüvvəsi bazarı, beynəlxalq işçi qüvvəsinin miqrasiyası, beynəlxalq iqtisadi inteqrasiyanın formaları və səviyyələri, beynəlxalq maliyyə və iqtisadi təşkilatlar haqqında biliklər əldə olunacaq. Bundan əlavə, müxtəlif dövlətlərin, təsərrüfat subyektlərinin mallar, xidmətlər, əmək, kapital və istehsalın digər faktorları ilə beynəlxalq mübadilə sahəsində qarşılıqlı fəaliyyətinin qanunauyğunluqları öyrənilir. | 4 |
| 22 | **Müasir informasiya-kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi**<br>Fənn çərçivəsində müasir informasiya-kommunikasiya texnologiyalarının təsnifatı və xüsusiyyətləri; müxtəlif növ kompüter qurğuları və şəbəkə texnologiyaları daxil olmaqla, informasiya texnologiyalarının (İT) əsasları; İkilik say sistemləri kimi müxtəlif məlumatların təqdimetmə sxemləri; İT mühitində fəaliyyət göstərmək üçün lazım olan alətlər və tətbiqlərə giriş təqdim edilir; informasiyanın kompüter emalının əsas prinsipləri (kodlaşdırılması, saxlanması, ötürülməsi və s.) öyrədilir.<br>İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin inkişaf mərhələləri, müxtəlif sahələrdə informasiya texnologiyalarının rolu (Elektron həyat; Kommunikasiya; Virtual cəmiyyət; Elektron imza və s.) informasiya texnologiyalarının effektivliyinin meyarları, informasiya və kiber təhlükəsizlik;<br>Müasir əməliyyat sistemləri (ƏS) və onların iş prinsipi; Əməliyyat sistemlərində faylların idarə olunması;<br>Proqramlaşdırmanın əsasları;<br>Şəbəkələşmə; Veb sistemləri və texnologiyaları;<br>Veb səhiflərin hazırlanması (HTML kodları və WYSIWYG redaktorlar);<br>Süni intellekt sistemləri;<br>İnformasiya təhlükəsizliyi və ona nail olma yolları; şifrələmə üsulları; kriptosistemlər; steqanoqrafiya; informasiyanın gizlədilməsi üsulları; şəbəkə təhlükəsizliyi; rəqəm imza texnologiyası; kompüter və informasiyanın kiberhücumlardan qorunması və icazəsiz istifadəsinin qarşısını almaq üçün təhlükəsizlik tədbirlərindən istifadə etmək, antiviruslar və s.;<br>MS Office 365 paket proqramlarının tətbiqləri: MS Word mətn prosessorunun imkanları, MS Excel cədvəl prosessorunda mürəkkəb (ixtisas üzrə) cədvəllərin qurulması, hesablamaların aparılması, və s., Təqdimatların hazırlanması, PDF fayllarının hazırlanması və redaktəsi, Teams proqramı və s. proqramların (tətbiqi proqramların) imkanlarından istifadə;<br>Verilənlər bazası (VB), Verilənlər bazasının idarəetmə sistemləri (VBİS) və onun imkanları öyrədilir. | 3 |

| | | |
|---|---|---|
| 23 | **İxtisas yönümlü xarici dil**<br>Fənn tələbələrə tədris olunan dilin səs quruluşunu, leksik-semantik təbiətini, lüğət tərkibini, dilin qrammatik strukturunu və tərkib elementlərini, leksik-qrammatik vahidlərin paradiqmatik və sintaqmatik əlaqələrini, onların funksionallığını və s. məsələləri nəzəri aspektdə öyrədir, eyni zamanda, bu biliklərin tətbiqi vərdişlərini formalaşdırır. Fənn çərçivəsində xarici dilə yiyələnmək üçün danışıq, yazı, oxu və dinləmə bacarıqları sistematik şəkildə inkişaf etdirilir. Bu fənn tələbələrdə öyrədilən dildə sərbəst formada fikir və düşüncələrini ifadə etmək, təqdim olunan dil materialının təhlilini aparmaq bacarığını da formalaşdırır. | 20 |
| 24 | **Mülki müdafiə**<br>Fənn çərçivəsində fövqəladə halların qarşısının alınması və aradan qaldırılması üçün vahid dövlət sistemi, təbii fəlakətlər zamanı təhlükəsizliyin təmin edilməsində vətəndaşların hüquq və vəzifələri, fərdi və kollektiv müdafiə prinsipləri, qəza-xilasetmə və digər təxirəsalınmaz işlər, ilk tibbi yardımın göstərilməsi, təcili təxliyə və bərpa tədbirləri, təhsil sahəsində mülki müdafiə tədbirləri təşkil etmək kimi məsələlər tədris olunur. | 3 |
| 25 | **Strateji idarəetmə**<br>Fənn çərçivəsində strateji idarəetmə və planlaşdırma, onun tarixi, əsas prinsipləri, məqsədləri, informasiya resurslarının strateji idarəolunması, informasiya savaşı, psixoloji savaş və təbliğat (propaqanda), siyasət sahəsində strateji idarəetmə, sosial sahədə strateji idarəetmə, iqtisadi sahədə strateji idarəetmə, strategiyanın hazırlanması prosesində vəziyyətin analizi, strateji məqsədlərin düzgün formalaşdırılması, daxili və xarici mühitin nəzərə alınması, təhlili, qərar qəbul etmə prosesi, qərarların qəbul edilməsi prosesində risklərin minimuma endirilməsi, strategiyaların qiymətləndirilməsinin kəmiyyət və keyfiyyət göstəriciləri, strategiyaların reallaşdırılması, nəzarət, strateji idarəetmənin effektliyinin qiymətləndirilməsi, qərar qəbul etmə metodları, strateji idarəetmənin modelləri, strateji idarəetmənin instrumentləri kimi məsələlər tədris olunur. Əsas diqqət strateji təhlilin metodlarının öyrənilməsinə yönləndirilir. | 3 |
| 26 | **Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasları**<br>Fənn çərçivəsində milli təhlükəsizlik nəzəriyyələri, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin konseptual və hüquqi əsasları, prinsipləri, bütövlükdə milli təhlükəsizlik sistemi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan milli təhlükəsizliyinə ən ciddi təhdid kimi, Azərbaycanın hərbi təhlükəsizliyi, iqtisadi təhlükəsizliyi, enerji təhlükəsizliyi, informasiya-ideoloji təhlükəsizliyi, ekoloji təhlükəsizliyi, Azərbaycanın beynəlxalq təhlükəsizliyin təmin edilməsi prosesində iştirakı, transmilli təhlükələrə qarşı mübarizə kimi məsələlər tədris olunur. | 3 |
| **...** | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər[1]**<br>**Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır. (Seçmə fənlər)** | **60** |
| **27** | **Seçmə fənn:** | **4** |
| 27.1 | **Avropa və Amerika ölkələri tarixi**<br>«Avropa və Amerika ölkələrinin tarixi» fənninin tədqiqat obyekti, vəzifələri və tədrisnin əhəmiyyəti. Müasir tarixin dövrləşdirilməsi və tarixşünaslığı. Fənnin | |

| | | |
|---|---|---|
| | metodu, tədqiqat prinsipləri və başqa fənlərlə əlaqəsi. Avropa və Amerika ölkələrinin müasir tarixi ümumdünya tarixinin tərkib hissəsi kimi. Bu ölkələrin tarixinin müasir dövrünün bəşəriyyətin sosial tərəqqisində yeri və rolu. Avropa və Amerika ölkələrinin müasir tarixinin Birinci dünya müharibəsindən sonrakı illərdən başlayaraq davam edən azadlıq hərəkatı ilə zənginləşmiş. 1918 – 1929–cu illərdə Avropa və Amerika ölkələrində iqtisadi və siyasi vəziyyətin sabitləşməsi baş vermişdir. 1929 – 1939–cu illərdə qərb ölkələrində dərin iqtisadi böhran, 1939 – 1945–ci illər II Dünya müharibəsində antifaşist koalisiyanın qələbəsi. Kapitalizmin və sosializm cəbhələri arasında mübarizədə sosializmin məğlubiyyəti. Müasir beynəlxalq və regional təşkilatlar və sivilizasiyanın inkişafına onların təsiri. Birinci dünya müharibəsindən sonra ABŞ-ın daxili və beynəlxalq vəziyyəti. V.Vilson hökumətinin daxili siyasəti. ABŞ-ın Paris sülh konfransında iştirakı. Tədris zamanı Beynəlxalq aləmdə baş verən hadisələr və dövlətlərarası münsibətlər öyrənilir. Fənnin tədrisi prosesində əsasən dünya siyasətinin formalaşmasında əhəmiyyətli rol oynayan dövlətlərin beynəlxalq münasibətlərin formalaşmasında oynadığı rolun öyrənilməsinə geniş yer verilir. | |
| 27.2 | **Postsovet ölkələrinin siyasi sistemləri**<br>Postsovet ölkələrinin siyasi sistemlərinin predmeti, metodoloqiyası və dövrləşdirilməsi.Əsas kateqoriyalar. Postsovet ölkələrinin siyasi sistemlərinin öyrənilməsinin metodları. Postsovet ölkələrinin siyasi sistemlərinin formalaşması və inkişafı. Prezident institutunun formalaşması. Prezident institutunun xüsusiyyətləri. Postsovet ölkələrində qanunverici orqanının formalaşması. Postsovet ölkələrində qanunverici orqanının fəalliyyətinin əsas xüsusiyyətləri. Postsovet ölkələrində siyasi elitasının təşəkkülü və evolyusiyası. Postsovet ölkələrində muxalifət. Siyasi məkanın strukturlaşması. Müasir dünyada qlobalaşma və siyasi sistemlər. Müasir siyasi sistemlərinin inkişafının aktual problemləri. | |
| **28** | **Seçmə fənn:** | **5** |
| 28.1 | **Beynəlxalq münasibətlərin formalaşmasının əsasları və təkamülü**<br>Beynəlxalq münasibətlərin formalaşması və təkamülü fənni qədim dövrdən günümüzə qədər olan dövrə kimi olan siyasi əlaqələrin qurulması metodlarını öyrənir. Qədim Yunanıstan, Roma və Qədim Şərq tarixində dövlətlərarası münasibətlər və siyasi fikir böyük əhəmiyyət daşımışdır. Hər bir dövlətin yarandığı gündən öz fəaliyyətində xarici əlaqələrə, beynəlxalq münasibətlərə daim xüsusi diqqət ayırmasına, özünün dünya dövlətləri sırasında, beynəlxalq münasibətlər sistemində iştirakına böyük əhəmiyyət verməsinə baxmayaraq, bu əlaqələri, təmasları uzun müddət başqa elm sahələrinin nümayəndələri tarixçilər, filosoflar, hüquqşünaslar, iqtisadçılar, hərbi strateqlər öyrənir və təhlil edirdilər. Vestfal müqaviləsinin imzalanması ilə yeni bir tarixi dövr başlandı. Beynəlxalq münasibətlər sisteminin formalaşmasının əsas hərəkətverici qüvvəsi Avropada XV -XVI əsrlərdə milli dövlətlərin yaranması, istehsal və əmək bölgüsünün və bütövlükdə kapitalist sisteminin formalaşması prosesinin başlanması oldu. Beynəlxalq münasibətlər elminin vətəni ABŞ hesab olunur. Beynəlxalq münasibətlər fənninin meydana gəlməsi Birinci Dünya müharibəsinin dəhşətlərinə intellektual reaksiyanın nəticəsi idi. Birinci dünya müharibəsindən sonra ilk dəfə məhz bu ölkədə“Beynəlxalq münasibətlər” dərsliyi nəşr olunur (1919). Tanınmış ABŞ alimi Hans Morqentaunun “Millətlər arasında siyasi münasibətlər. Hakimiyyət və dünyauğrunda mübarizə” adlı fundamental əsəri | |

| | | |
|---|---|---|
| | (1948) o zamana qədər beynəlxalq münasibətlərlə bağlı mövcud olan dünyagörüşünü kökündən dəyişdi. Məşhur fransız sosioloqu Raymon Arona görə, beynəlxalq münasibətlərin məzmununu əsasən dövlətlər arasında olan münasibətlər təşkil edir. Öz növbəsində dövlətlərarası münasibətlər simvolik personaj olan diplomat və əsgərin özünəməxsus davranışlarında ifadə olunur. | |
| 28.2 | **Beynəlxalq münasibətlərin regional aspektləri**<br>Fənnin əsas məqsədi tələbələrdə kursun konseptual aparatı haqqında aydın təsəvvür formalaşdırmaq; regionun beynəlxalq münasibətlər sistemindəki yeri və rolu haqqında təsəvvür yaratmaq; əsas regional beynəlxalq təşkilatların strukturu və fəaliyyəti ilə tanış olmaq; inteqrasiya qruplarının fəaliyyətinin əsas parametrlərini aşkar etmək; mövcud mexanizmləri göstərmək; regional təhlükəsizliyin təmin edilməsi; əsas regional münaqişələrin səbəblərini, mövcud vəziyyətini və həlli perspektivlərini müəyyən etmək; tələbələri beynəlxalq münasibətlərin regional aspektləri üzrə mövcud elmi tədqiqatlarla tanış etmək, onlara müstəqil axtarış vərdişlərini aşılamaq. "Beynəlxalq münasibətlərin regional aspektləri" fənninin tədris proqramı aşağıdakı mövzuları əhatə edir: Region beynəlxalq münasibətlərin bir alt sistem kimi; Regionun beynəlxalq həyatının əsas komponentləri; Avro-Atlantik regionu beynəlxalq münasibətlərin alt sistemi kimi; Postsovet məkanında beynəlxalq münasibətlərin xüsusiyyətləri: Asiya-Sakit Okean regionu beynəlxalq münasibətlər sistemdə; Yaxın və Orta Şərq region kimi beynəlxalq münasibətlərin alt sistemində; Cənubi Asiyada beynəlxalq münasibətlərin əsas xüsusiyyətləri; Beynəlxalq amerikan ölkələriarası münasibətlər sisteminin cizgiləri; Afrikanın subregion kimi beynəlxalq münasibətlər sistemində; Azərbaycan beynəlxalq münasibətlər sistemində | |
| **29** | **Seçmə fənn:** | **5** |
| 29.1 | **Postsovet ölkələrinin siyasi və iqtisadi problemləri**<br>Postsovet ölkələrində iqtisadiyyat. Sosial-siyasi inkişaf. Xarici siyasətin prioritetləri. Beynəlxalq iqtisadi münasibətlər. Regional təhlükəsizlik. SSRİ-nin dağılması. Postsovet məkanında yeni müstəqil dövlətlərin yaranması. SSRİ-də dövlət hakimiyyəti sistemi Sovet federalizmi sisteminin böhranına səbəb oldu. "Suverenliklər paradı" baş tutdu. Etnomillətçilik parçalanma proseslərinini sürətləndirdi. 1990-cı illərin birinci yarısında iqtisadi böhran Postsovet ölkələrində islahatların müxtəlifliyinə gətirib çıxardı. İqtisadi əlaqələrin şaxələndirilməsi pozuldu və Postsovet məkanı dünya bazarının resurs seqmentinə çevrildi. | |
| 29.2 | **Asiya və Afrika ölkələri tarixi**<br>Asiya və Afrika ölkələrinin tarixi ümumdünya tarixinin tərkib hissəsidir. Asiya və Afrika ölkələrinin tarix kursu yeni və ən yeni dövrü əhatə etməklə bu regionda yaşayan xalqların tarixini XVII əsrdən başlayaraq bu günə kimi izləyir. Kursun əsas məqsədi adı çəkilən qitələrdə ümumdünya tarixi proseslərin ümumi qanunauyğunluqlarını göstərməkdir. Kursun tədrisi tələbələrin ümumtəhsil və dünyagörüşlərinin hazırlığında əhəmiyyətli rol oynamaqla bərabər, onların intellektual inkişafına da əsaslı təsir göstərir. Bu fənn dünya tarixinin mühüm tərkib hissəsini təşkil edən Asiya və Afrika ölkələrinin XVII əsrin sonlarından müasir dövrə qədərki tarixini, bu dövr ərzində baş vermiş milli oyanış, milli azadlıq hərəkatlarını mərhələlərlə tələbələrə öyrədir. Asiya və Afrika ölkələrinin tarixi ümumdünya tarixinin ayrılmaz, onunla sıx bağlı olan mühüm tərkib | |

| | | |
|---|---|---|
| | hissəsidir və bütövlükdə ümumdünya tarixi proseslərinə xas olan ümumi qanunauyğunluq Asiya və Afrika ölkələri tarixinə də aiddir. Yeni dövrdə Şərq ölkələri xalqlarının iqtisadi və siyasi geriliyinin, onların inkişafının eybəcər şəkil almasının və Avropanın qabaqcıl ölkələrindən asılı qalmasının həlledici səbəblərindən biri də Avropa dövlətlərinin qarətçilik və müstəmləkəçilik siyasəti idi. Asiya və Afrika ölkələri xalqlarının daxili və xarici zülmkarlara qarşı mərhələli mübarizəsinin öyrənilməsində Azərbaycan tarixçiləri də dünyanın mütərəqqi fikrli tarixçilərinin obyektiv elmi təhlillərinə və qərəzsis mövqelərinə istinad edərək müasir dünyanın tələbləri baxımından mövcud problemlərə tarixi hadisələrin baş verməsi, gedişi və nəticələrinə obyektiv yanaşmanı özlərinin müqəddəs borcu hesab edirlər. | |
| **30** | **Seçmə fənn:** | **5** |
| 30.1 | **Müasir beynəlxalq münasibətlər sistemində qloballaşma prosesləri**<br>Qloballaşma anlayışı və mahiyyəti . Qloballaşmanın yaranması .Qloballaşmada müasir proseslər. Qloballaşma dövründə dövlət aspekti. Qloballaşma və cəmiyyət. Qloballaşnanın iqtisadi aspekti. Qloballaşmanın siyasi səbəbləri. Qloballaşmanın sosial səbəbləri. Qloballaşmanın ekoloji səbəbləri. Qloballaşma prosesində Azərbaycan. Qloballaşmada din aspekti. Qloballaşmanın dinamikası. Qloballaşan dünyada beynəlxalq kapital. Qloballaşma və TMK. Qlobal dünyada sivilizasiyaların rolu. | |
| 30.2 | **Beynəlxalq münasibətlərin humanitar aspektləri**<br>Beynəlxalq münasibətlərdə beynəlxalq humanitar əlaqələr. Postbipolyar dövrdə dünya siyasətində humanitar mövzunun aktuallaşması. Şəxsiyyət təhlükəsizliyin konsepsiyası. Müasir dünya siyasətində Hüququn yeri və rolu. Beynəlxalq humanitar hüququn inkişafı. Humanitar sahədə beynəlxalq təşkilatların fəalliyyəti. İnsan hüquqları konsepsiyası. İnsan hüquqlarının təmin olunmasında beynəlxalq əməkdaşlıq. Miqrasiya proseslərinin humanitar aspektləri. Dünya siyasətində mədəniyyətlərarası münasibətlər. Dünya humanitar məkanı və humanitar siyasət. Humanitar əməkdaşlığın məqsədləri və formaları. Təhsil, elm, mədəniyyət dünya siyasətinin aləti kimi. Mədəni diplomatiyanın forma və metodları. Azərbaycan Respublikası Humanitar siyasətinin və mədəni diplomatiyasının xüsusiyyətləri. | |
| **31** | **Seçmə fənn:** | **5** |
| 31.1 | **Beynəlxalq biznesin əsasları**<br>Beynəlxalq təcrübə göstərir ki, düyanın heç bir ölkəsi xarici iqtisadi əlaqələr qurmadan öz milli iqtisadiyyatının normal inkişafını təmin edə bilməz. Ölkələr arasında bu əlaqələr çoxşaxəlidir və onun müxtəlif formaları mövcuddur. Beynəlxalq iqtisadi münasibətlərin 2\3 hissəsindən çoxu beynəlxalq biznes əlaqələrinin payına düşür. Kommersiyasız biznesin qeyri-mümkünlüyü hamı üçün bəllidir. Beynəlxalq biznesin mahiyyəti, məzmunu, məqsədi, Beynəlxalq biznesin növləri və beynəlxalq biznesin təşkili formaları, Beynəlxalq biznesin sferası, Dünya maliyyə mühiti, Beynəlxalq biznesin inkişaf istiqamətləri, Beynəlxalq ticarətin mahiyyəti və əlamətləri, Kapitalın beynəlxalq hərəkəti, Beynəlxalq injinirinq xidməti, Beynəlxalq biznesdə qiymətin əmələ gəlmə strategiyası, idxal və ixrac sövdələşmələrində danışıqların aparılmasıdır. | |
| 31.2 | **Politologiya**<br>Politologiya siyasət haqqında elmdir. Siyasi fikrin inkişafının əsas mərhələləri. Azərbaycanın siyasi fikrinin inkişaf mərhələləri. Siyasət cəmiyyətin | |

| | | |
|---|---|---|
| | tənzimləyici, təşkiledici və nəzarətedici funksiyasıdır. Siyasi hakimiyyət və onun daşıyıcıları. Siyasi elita. Siyasi sistem nəzəriyyəsi. Siyasi rejimlər. Siyasi partiyalar və partiya sistemləri. Demokrasiya: əsas təsisatlar. Parlament başlıca demokratik təsisatdır. Seçki sistemləri. Dövlət başlıca siyasi təsisatdır. Siyasi şüur və siyasi ideologiya. Siyasi mədəniyyət.Vətəndaş cəmiyyəti. Dünya siyasəti nəzəriyyəsi və beynəlxalq siyasi münasibətlər. Modernləşdirmə konsepsiyası siyasi inkişafın nəzəri modeli kimi. Siyasi texnologiyalar. Siyasi tədqiqatlar və siyasi təhlil. Siyasi qərarların qəbulu. Beynəlxalq münasibətlərin politologiyası. Beynəlxalq siyasətin qlobal problemləri. Dövlətin xarici siyasət fəaliyyəti. | |
| **32** | **Seçmə fənn:** | **3** |
| 32.1 | **İnsan hüquqları**<br>Müasir dövrdə əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir. Dünya birliyinin bərabərhüquqlu üzvü olan Azərbaycanda insan hüquqlarının təmini dövlətin əsas prioritet məqsədləri sırasına daxildir. Mütərəqqi haldır ki, Azərbaycan Respublikasının Konstitusiyası dövlət quruculuğu tarixində ilk dəfə olaraq insan hüquqlarının təbii xarakter daşımasını özündə əks etdirmişdir. Belə ki, Əsas Qanunumuza müvafiq olaraq, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır və bu hüquqların da reallaşdırılmasında keyfiyyətli hüquq təhsilinin mühüm rolu şübhəsizdir. Əhalinin hüquqi baxımdan maarifləndirilməsi demokratik, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılmasının mühüm cəhətlərindən olmaqla yanaşı, insan hüquq və azadlıqlarının müdafiəsini daha səmərəli təmin etmək baxımından da böyük əhəmiyyət daşıyır. Təhsil peşəkar mütəxəssislərin hazırlanması məqsədini daşımaqla yanaşı, həm də fərdlərin cəmiyyətdə azad iştirak edə bilən şəxsiyyət kimi formalaşmasına təkan verməli, onların cəmiyyətin sosial, iqtisadi, mədəni siyasətlə əlaqədar qərarların qəbul edilmə prosesində iştirakı üçün bacarıqlar əldə etməsi vasitəsi olmalıdır. Bu baxımdan insan hüquqları sahəsində təhsil peşəkar mütəxəssislərin hazırlanması zərurətini daim önə çəkir. Fənnin proqramında insan hüquqlarının ən aktual məsələlərinə həsr olunmuş mühazirələr öz əksini tapmışdır. Əsas etibarilə insan hüquqlarının anlayışı, mahiyyəti və əsas prinsipləri, müasir strukturu, mənbələri, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi, universal müqavilə və qeyri-müqavilə mexanizmləri, Avropa Şurası və insan hüquqlarının müdafiəsi, Avropa İnsan Hüquqları Məhkəməsi, insan hüquqlarının beynəlxalq müdafiəsinin regional sistemi, insan hüquqlarının müdafiəsində ombudsmanın rolu, insan hüquqları və beynəlxalq humanitar hüquq kimi mövzulara həsr olunmuş mühazirələrin tədris olunması nəzərdə tutulmuşdur. | |
| 32.2 | **Mədəniyyətşünaslıq və genderə giriş**<br>Müasir dövrdə gender və mədəniyyətşünaslıq məsələsi aktual məsələlərdən birinə çevrilmişdir. Xüsusilə, XXI əsrdə gender məsələsi qlobal xarakter almışdır. Benəlxalq münasibətlər sahəsində əsrlər boyu mədəniyyətin necə formalaşdığı, ona təsir göstərən faktorların öyrənilməsi, ümumiyyətlə dövlətlərin siyasi quruluşunun mədəniyyətinin inkaşıfına təsiri və s. bu kimi məsələlərin öyrənilməsi olduqca vacibdir. Eləcə də gender məsələsi, genderin tarixi inkişafı, müxtəlif cəmiyyətlərdə gender münasibətləri, bu kimi məsələlər hal hazırda aktuallıq təşkil edən mövzulardandır. Mədəniyyətin mahiyyəti və əsas | |

| | | |
|---|---|---|
| | funksiyaları. XX əsr mədəniyyəti. Mədəniyyət və onun tarixi təsnifatı. Mədəniyyət və onun tarixi təsnifatı. Gendere giriş. Genderə kompleks yanaşma tərzi. Genderin planlaşdırılması. Gender və siyasət. | |
| **33** | **Seçmə fənn:** | **6** |
| 33.1 | **Diplomatik yazışma və diplomatik Protokol**<br>Funksional üslublar haqqında. Diplomatik altüslubu. Sənəd anlayışına nə daxildir. Diplomatik sənədlərin növləri və xüsusiyyətləri. İdarədaxili sənədlər. Diplomatik sənədlərin unifikasiyası. Diplomatik sənədlərin tərkib hissələri. Diplomatik yazışmalarda sözün qüdrəti. Beynəlxalq müqavilələr. Eriket. Dövlət orqanları. Diplomatik münasibətlər. Diplomatik və konsul missiyaları. Diplomat. Diplomatik korpus. Diplomatik imtiyaz və immunitetlər. Diplomatik yazışma və diplomatik sənədlər.Vizitlər və söhbətlər. Geyim. Vizit kartı. Suvenirlər. Diplomatik qəbullar. Beynəlxalq nəzakət normaları. Xüsusi nümayəndə heyətinin qəbulu və nümayəndə heyətinin xarici səfərləri. Beynəlxalq danışıqlar və konfranslarda diplomatik protokol. | |
| 33.2 | **Geopolitika**<br>“Geopolitika” fənn kimi ölkənin coğrafi mövqeyinin ortaya qoyduğu iqtisadi, sosial, siyasi və strateji amillərin onun xarici siyasətinə təsirin imkanlarını öyrənir. Fənnin tədris proqramında əsasən aşağıdakı mövzulara yer verilir: Geopoitika elminin yaranması və inkişafı; Geopolitikanın əsas qanunları və aktorları; Geopolitikanın ilkin mənbələri və inkişaf tarixi (Planetin XIX əsrə qədərki ilkin geopolitik ideya və mənbələrinin qısa tarixi, Qədim Çin və Hindistanın geopolitik təlimləri, Ərəb dünyasının qədim geopolitik konsepsiyaları, Qədim yunan və romalıların geopolitik təlimləri, Orta əsrlərdə və yeni dövrdə Avropanın əsas geopolitik təlimləri və nəzəriyyələri); Dünyanın geopolitik strukturunun formalaşması; Kontinental Avropa klassik geopolitik məktəbinin yaranması, xarakteristikası və əsas nəzəriyyələri; İkinci Dünya Müharibəsi dövründə əsas iştirakçı dövlətlərin geopolitik konsepsiyaları və hədəfləri; Rusiyanın geopolitik məktəbi; Türklərin geopolitik baxışları (Osmanlı türklərinin geopolitik baxışları, Atatürkün geopolitik düşüncələri, Türkiyənin soyuq müharibə dövründə geopolitik hədəf və nəzəriyyələri); XX əsrin II yarısı və müasir dövrdə Qərb ölkələrinin geopolitikası (Avropa Kontinental geopolitikası, İngilis-amerikan atlantik geopolitikası); Müasir dünya sistemi və onun geopolitik reallıqları və Qlobal geopolitikanın yeni dövrünün əsas tendensiyaları. | |
| **34** | **Seçmə fənn:** | **6** |
| 34.1 | **Beynəlxalq qeyri-hökumət təşkilatları**<br>Beynəlxalq qeyri dövlət təşkilatları fənninin əsasları. XX əsrin 20-40-cı illərində QDT inkişafı və Böhranı. II Dünya müharibəsindən sonra QDT fəaliyyəti. QDT beynəlxalq əlaqələr sistemində təsiri. BMT ilə Qeyri Dövlət Təşkilatları arasında əlaqələr. Epik növün janrları. Avropa Şurası- yeni tipli beynəlxalq təşkilat. Qeyri dövlət təşkilatları və müasir beynəlxalq inkişaf. Azərbaycan Respublikasının dövlət siyasətinin formalaşmasında Qeyri dövlət təşkilatların fəaliyyəti. Amnesty International BQHT. Human Rights Watch BQHT. Greenpeace BQHT. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Federasiyası. Regional inteqrasiyalar-Siyasi təşkilatlar. | |
| 34.2 | **Məntiq və ritorika**<br>Məntiq və təfəkkür prosesi.Təfəkkürün forma və qanunlar anlayışı Məntiq və dil | |

| | | |
|---|---|---|
| | Məntiqi biliklərin yaranması və inkişafı. Anlayış. Anlayışın ümumi səviyyəsi. Anlayışın növləri. Anlayışlar arasında münasibətlər. Anlayışlar arasında məntiqi əməliyyatlar. Tərif. Anlayışların bölgüsü. Siniflər üzərində əməliyyatlar. Hökm. Hökmün ümumi səviyyəsi. Hökm və cümlə. Sadə hökmlər, onların növləri və tərkibi. Hökmlərdə terminlərin ehtiva olunması. Mürəkkəb hökmlər. Hökmlər arasında məntiqi münasibətlər. Təfəkkürün formal məntiqi qanunları. Təfəkkür qanunu nə deməkdir? Eyniyyət qanunu. Ziddiyyətsizlik qanunu. Üçüncü istismar qanunu. Kafi əsas qanunu. Əqli nəticə. Əqli nəticənin ümumi səviyyəsi. Nəticəçıxarma qaydası anlayışı. Bilavasitə əqli nəticə və formaları. Dedduktiv əqli nəticə. Şərti qəti sillogizm. Qəti sillogizmin ümumi səviyyəsi. Sillogizmin fiqur və modulları. Ayırıcı hökmlərdən və münasibət bildirən hökmlərdən yaradılan sillogizmlər. Sualın məntiqi. Sualın növləri. Modal hökmlər. İnduktiv əqli nəticə. İnduksiyanın ümumi səviyyəsi. Tam və natamam induksiya. Populyar induksiya. Elmi induksiya. Səbəbiyyat əlaqələrini müəyyən etməyin induktiv metodları. Statistik ümumiləşdirmə. Analogiya. Sübut və təkzib. Nitq mədəniyyəti və natiqlik sənəti. | |
| **35** | **Seçmə fənn:** | **5** |
| 35.1 | **Müasir beynəlxalq münasibətlərdə enerji diplomatiyası**<br>Müasir dövrdə dünyada baş verən inkişaf tendensiyalarını, dövlətlərarası münasibətləri, beynəlxalq münasibətlər sistemini anlamaq və analiz etmək üçün dövlətlərin milli maraqlarının tədqiqinə böyük ehtiyac duyulmaqdadır. Hər hansı bir dövlətin milli maraqlarının nədən ibarət olduğunu bilmədən onun beynəlxalq münasibətlər sistemindəki mövqeyini, iqtisadi, siyasi və hərbi potensialını, qonşu dövlətlərə və regionlara münasibətdə tutduğu mövqeyini düzgün müəyyənləşdirmək mümkün deyil. “Müasir beynəlxalq münasibətlərdə enerji diplomatiyası” kursunun əsas məqsədi dünya dövlətlərinin transformasiyası konteksində tələbələri enerji siyasətinin əsas müddəaları ilə tanış etmək, beynəlxalq əlaqələrdə enerji məsələsinin önəmini göstərmək, onun rolunu dövlətlərin milli maraqlarının müdafiəsini və dayanıqlığını qeyd etməkdir. XX yüzillikdə dövlətlərarası danışıqların, müqavilələrin, sazişlərin çoxunun əsas baiskarı məhz neft olmuşdur. Müharibələr tarixində keyfiyyət və kəmiyyətcə yeni mərhələnin – dünya müharibələri mərhələsinin başlanması da bilavasitə neft adı ilə bağlıdır. “Neft” kəlməsi müxtəlif dillərdə müxtəlif cür adlanması və səslənsə də, öz əhəmiyyətini və ictimai – siyasi əhəmiyyətinə görə neft məfhumu vahid mənanı özündə ehtiva edir. Bu məna onun son dərəcə gərəkli və əvəzolunmazlığından irəli gəlir. “Müasir beynəlxalq münasibətlərdə enerji diplomatiyası” kursunun öyrənilməsi nəticəsində tələbə “enerji siyasəti”, “enerji diplomatiyası”, “enerji təhlükəsizliyi” kimi əsas anlayışları öyrənməlidir. Dünya iqtisadi siyasətində, enerji siyasətinin parametrlərini, ölkələrin xarici siyasət prioritetləri arasında yerini və rolunu bilməli, enerji geosiyasəti sahəsində hadisələri müstəqil analiz etməlidir. Azərbaycan Respublikasının beynəlxalq mövqeyinin güclənməsində, Xəzər dənizinin sahillərində yerləşən Azərbaycanın müstəqil inkişafı, dövlət təhlükəsizliyi və geosiyasi mövqeyinin formalaşmasında enerji siyasətinin rolunu öyrənməlidir. | |
| 35.2 | **Beynəlxalq münasibətlərin hərbi-siyasi aspektləri**<br>Fənnin tədris proqramı çərçivəsində digər məsələlərlə yanaşı qloballaşma prosesləri, ikinci demoqrafik keçid, çoxmərkəzli dünya nizamının formalaşması, dəyişən rol nəzərə alınmaqla, təhlükəsizlik və beynəlxalq münasibətlərin aktual | |

| | | |
|---|---|---|
| | problemləri sistemli mövqedən nəzərdən keçirilir. Müasir dünyada nüvə silahı və hərbi zorakılıq, strateji sabitlik problemləri, perspektivli sistemin hərbi və informasiya qarşıdurma vasitələrinində rolu haqqında izahata yer verilir. Seçmə fənni mənimsəməsi nəticəsində tələbə: "Təhlükəsizlik" vəziyyətinin mahiyyətini, təhlükəsizlik və sistemlərin inkişafı şərtləri arasında əlaqəni dərk etməlidir. Bəşəriyyətin tək özünü inkişaf etdirən sistem kimi inkişafına təsir edən əsas amilləri bilmək və dərk etməli; bu mövqelərdən mövcud vəziyyəti beynəlxalq və hərbi təhlükəsizlik sahəsində mövcud problemlərlə uzlaşaraq qiymətləndirə bilməli; beynəlxalq terrorizm, nüvə silahlarına nəzarət, informasiya müharibəsi və informasiya təhlükəsizliyi kimi aktual məsələlər daxil olmaqla, dövlətlərarası münasibətlərin konkret sahələrində yaranan problemləri sistemli mövqedən qiymətləndirə bilməli; beynəlxalq təhlükəsizliyin aktual problemlərinə dair müxtəlif səviyyəli analitik, elmi və digər informasiya materiallarının tənqidi təhlili bacarıqlarına malik olmalıdır. | |
| **36** | **Seçmə fənn:** | **5** |
| 36.1 | **Diplomatik və işgüzar etiket**<br>«Diplomatik və işgüzar etiket» diplomatik etiketin beynəlxalq və milli normativ-hüquqi bazası, onun formalaşması tarixi; diplomatik etiketin əsas prinsipləri və vəzifələri; diplomatik etiketin mahiyyətini əks etdirən əsas anlayış, termin və kateqoriyalar; diplomatik etiketin əsas qayda və normalarının diplomatlar və iş adamlarının imicinin formalaşmasında rolu; diplomatik etiketin milli xüsusiyyətləri. Rəsmi diplomatik davranışın universal beynəlxalq və milli qayda və ənənələri. və s. | |
| 36.2 | **Xalq diplomatiyası**<br>"Xalq diplomatiyası" fənninin predmeti. Xalq diplomatiyasının nəzəri və tarixi məsələləri. İctimai diplomat: keyfiyyət xüsusiyyətləri və fəaliyyət prinsipləri. Xalq diplomatiyasının metodları. Qeyri-hökumət təşkilatlarının rolu. Xalq diplomatiyası və KİV. Xarici siyasət fəaliyyətinin informasiya dəstəyi. Avropa İttifaqının xalq diplomatiyası: problemləri və inkişaf perspektivləri. ABŞ-nın xalq diplomatiyası yeni informasiya yüzilliyində. Azərbaycanın Xalq diplomatiyası. Xalq (ictimai) diplomatiyası dövlətlərarası kommunikasiyanın ən aktual və perspektivli formalarından biri kimi xarici siyasət proseslərinin tədqiqatçılarının diqqətini getdikcə daha çox cəlb edir. Dünyadakı mövcud vəziyyət ölkəmiz haqqında obyektiv baxışın formalaşmasında, ona etimadın möhkəmləndirilməsində xalq diplomatiyasının resurslarından daha fəal istifadə edilməsi zərurətini diktə edir. Bu gün assosiasiya fəaliyyətinin səmərəliliyinin artırılmasına və ilk növbədə Asiya, Afrika və Yaxın Şərq ölkələri ilə əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirir. Biz müxtəlif səviyyələrdə fikir mübadiləsi üçün yeni kanallar yaratmağa çalışırıq.<br>Tarixən diplomatiyadan istifadə, onun forma və üsulları qədim dövrlərə, planetimizdə dövlətlərin formalaşmasına başlanılan dövrə gedib çıxır. Hər bir yaranan dövlət başqalarından təcrid olunmuş halda mövcud deyildi, onlarla bu və ya digər münasibətə girirdi. Çox vaxt dövlətlərin öz xarici siyasət məqsədlərinə çatma vasitəsi bütün qəddarlığına baxmayaraq, qadağan olunmayan müharibə idi. Üstəlik, müasir dünyada müharibə beynəlxalq hüquq normaları ilə tənzimlənir. | |
| **37** | **Seçmə fənn:** | **3** |
| 37.1 | **Diplomatik portret** | |

| | | |
|---|---|---|
| | Beynəlxalq münasibətlərdə münaqişələr və mübahisələrin diplomatik-siyasi yolla nizama salınması və həll edilməsində tarixi şəxsiyyətlərin rolunun araşdırılması həmişə aktuallıq kəsb etmişdir. Tarixi şəxsiyyətlər, dövlət və siyasi xadimlər, həmçinin diplomatlar dövlətlərarası münasibətlərin formalaşması və inkişafında mühüm rol oynamış, beynəlxalq konfranslarda öz dövlətlərini təmsil edərək onların siması olmuşlar. Diplomatlar, ictimai-siyasi və dövlət xadimləri beynəlxalq problemlərin və məsələlərin həll edilməsində müxtəlif diplomatik vasitə və resurslardan istifadə etmiş, onların bu sahədə diplomatik-siyasi bilikləri və baxışları həlledici rol oynamışdır. Araşdırmalar göstərir ki, taleyüklü məsələlərin həll edilməsində və idarəçilik prosesində tarixi şəxsiyyətlərin malik olduğu fərdi xüsusiyyətlər, şəxsi keyfiyyətlər, ailə, mühit, təhsil, diplomatik bilik və təcrübə böyük rol oynamışdır. Dövlət idarəçiliyi, xarici siyasət və diplomatiya sahəsində uğur qazanan siyasi və dövlət xadimlərinin, eləcə də diplomatların reputasiyası mühüm əhəmiyyət kəsb etmiş, bu, bir sıra beynəlxalq problemlərin həll edilməsinə və vacib qərarların qəbul edilməsi ilə nəticələnmişdir. Diplomatiya, dünya siyasəti sahəsində bir sıra siyasi və dövlət xadimləri həm öz dövlətində, həm də bütövlükdə beynəlxalq münasibətlərdə yeni gərginlik ocaqlarının və müharibələrin baş verməsinə rəvac vermiş, xalqları fəlakətə sürükləmiş, köhnə sistem yeni dünya nizamı ilə əvəzlənmişdir. Bu tarixi şəxsiyyətlər həm müsbət, həm də mənfi keyfiyyətlərə malik olmuş, həmin xüsusiyyətlər onların diplomatik fəaliyyətinə və siyasi baxışlarına təsir göstərmişdir. | |
| 37.2 | **Konfliktologiya**<br>“Konfliktologiya” fənni münaqişə nəzəriyyəsinin əsas müddəalarını; münaqişələrin səbəbləri, funksiyaları və tipologiyalarını; münaqişənin inkişaf mərhələləri və şəraitini; münaqişəli situasiyanın yaranması və onun aradan qaldırılması üçün ilkin analizin aparılmasını; Konfliktologiyaya sistemli yanaşma metodlarını; Münaqişənin qarşısının alınması və ya baş vermiş münaqişənin daha tez və sakitciliklə aradan qaldırılması yollarını və tətbiqi konflikrologiya metodlarını mənimsəmək üçün tədris olunur. Eyni zamnada, fənnin tədris proqramında münaqişələrə yanaşma məsələsində Qədim, Orta və Yeni dövrlərdəki filosofların və nəzəriyyəçilərin münaqişələrlə bağlı müxtəlif fikirləri; münaqişələrin mahiyyəti, strukturu, tipologiyası və funksiyaları, habelə, “Nizam nəzəriyyəsi” və “Münaqişə nəzəriyyəsi” haqqında ətraflı məlumatlar öz əksini tapmışdır. | |
| **38** | **Seçmə fənn:** | **4** |
| 38.1 | **Diplomatik və konsul xidmətləri**<br>Bəşər cəmiyyətinin inkişaf tarixində dövlətin xarici siyasət məsələləri, onun mühüm vasitəsi-diplomatiya hər zaman mühüm yer tutmuşdu. Məhz buna görə də diplomatiyanın yaranması və inkişafı tarixi ən qədim dövrlərdə dövlətlər arasındakı xarici əlaqələrin ilkin formaları haqqında məlumatlar, qədimdən başlayaraq bu günədək dövlətlərarası münasibətləri öyrənmək və b. məsələlərə görə diplomatik xidmətin təşkili və inkişafı problemlərini öyrənmək ən vacib məsələlərdən biridir. Diplomatik funksiyaların daşıyıcıları və icraçıları bütün dövlətlərdə xarici işlər idarəsi şəklində mövcud olan diplomatik aparat və xüsusi hazırlanmış diplomatik kadrların daimi işlədiyi xarici orqanlardır. Diplomatik xidmət nədir? Onun əsasını nə təşkil edir? Diplomatik fəaliyyətin prinsip və əsasları hansılardır? Diplomatik nümayəndəlik başçıları hansı şərtlərlə akredita | |

| | | |
|---|---|---|
| | edilirlər. Diplomatın hüquq, imtiyaz və immunitetləri Diplomatik xidmət kursunda öyrənilir. Həmçinin diplomatik protokol, diplomatik münasibətlərin yaranması, diplomatik korpus və onun fəaliyyəti də diplomatik xidmət fənni tərəfindən araşdırılır. Diplomatik xidmət kursunda Azərbaycanda və xarici ölkələrdə diplomatik xidmətin təşkili məsələləri də müqayisəli şəklildə öyrənilməlidir. Ona görə də diplomatik xidmət kursunun öyrənilməsi ən aktual problemlərdən biridir; Diplomatik və konsul xidməti; siyasi proseslərin daha dərindən dərk edilməsi, dünya siyasətində baş verən hadisələrə və proseslərə dair daha obyektiv mülahizələr yürütmək üçün biliklərin əldə edilməsi istiqamətində mühüm rol oynayır. Kursun tədrisi zamanı diplomatiyanın keçdiyi tarixi inkişaf yoluna, qədim və müasir diplomatiya institutlarının müqayisəli təhlilinə, diplomatiyanın inkişaf xüsusiyyətlərinə, diplomatik münasibətlərin yaradılması və inkişaf etdirilməsi yollarına, diplomatiyanın yeni istiqamətləri olan “çoxtərəfli diplomatiya”, “iqtisadi diplomatiya”, diplomaiya və KİV kimi mövzuların öyrənilməsinə yer ayırır, diplomatiyanın dünya siyasətində yeri və müasir diplomatiyanın problemləri öyrənilir. Diplomatik xidmət orqanlarının fəaliyyəti, informasiya bazası, diplomatın şəxsi keyfiyyətləri və hansı üstünlüklərə malik olması, həmçinin diplomatik etiket qaydaları, diplomatik səfərlər və s. mövzular kursun tədrisi prosesində öyrənilir. ABŞ və Qərbi Avropada, Azərbaycanda diplomatiyanın əsas inkişaf xüsusiyyətlərinə əhəmiyyətli dərəcədə yer ayrılır. | |
| 38.2 | **Müasir siyasi ideologiyalar**<br>İdeologiya, əsas yanaşma və interpretasiya. İdeologiyanın sosial funksiyaları. İdeologiyaların yaranması, ideoloji spektr. Liberalizm. Konservatizm. Sosializm. Marksizm. Nasionalizm. Faşizm. Anarxizm. Fundamentalizm. Siyasi fəaliyyət müxtəlif sosial qruplar, siniflər və dövlətlərarası münasibətlər üzərində qurulur. Hakimiyyət problemi ilə bağlı olan hər hansı bir fəaliyyət siyasi xarakter daşıyır. Siyasət cəmiyyətin inkişafının müəyyən mərhələsində yaranır və o xüsusi mülkiyyətə əsaslanan istehsal formalarının, sosial strukturun, mədəniyyətin formalaşdığı dövrdə təşəkkül tapmışdı. Müxtəlif sosial qruplar öz mənafelərini qoruyub saxlamaq üçün xüsusi idarəetmə aparatını yaradırlar. Siyasi hakimiyyət müxtəlif təsisat formaları vasitəsilə həyata keçirilir.<br>Beynəlxalq münasibətlıərin Vestfal sistemi (Bu sistem 1648-ci ildə 30 illik müharibədən sonra formalaşmışdır. Əsas ideyası-güclərin balansı, prinsipləri isə - milli maraqların və milli dövlətin öncəliyi, dövlət suverenliyi, daxili işlərinə qarışmamaq, bərabərlik və s.) müasir çağırışlar qarşısında durmaq gücündə deyil. Millət-dövlət forması müasir dünyada aparıcı rol oynasa da, ərazi və hakimiyyət tədricən bir-birndən uzaqlaşmağa başlamışdır. Coğrafi, sosial, mədəni, dini və iqtisadi sərhədlərin yerdəyişməsi, siyasi sərhədlərin də dəyişməsinə səbəb olmuşdur. | |
| **39** | **Seçmə fənn:** | **4** |
| 39.1 | **Qafqaz regionu konfliktləri**<br>“Qafqaz regionu konfliktləri” adlı fənnin tədrisi gələcək diplomatlar üçün nəzərdə tutulmuş əsas fənlərdəndir. Diplomatiyanı özünə peşə seçmiş tələbələrə “Qafqaz regionu” anlayışı, buradakı konfliktlərin tarixi və reallığı barədə geniş məlumat vermək, izah və təhlil etmək sözügedən fənnin tədrisinin qarşısında duran mühüm şərtlərdəndir. Qafqaz regionu konfliktlərinə elmi-nəzəri yanaşma. Mənbəşünaslıq bazası. XX əsrin 90-cı illərində beynəlxalq vəziyyətin dəyişməsi və Qafqaz regionu. Qafqaz regionu uğrunda rəqabət: ziddiyyətlər və problemlər. | |

| | | |
|---|---|---|
| | Rusiyanın Qafqaz siyasəti: yeni reallıqlar kontekstində ABŞ-ın Qafqaz siyasəti: yeni dünya nizamında. İranın Qafqaz siyasəti: tarixi maraqlar baxımında. Türkiyənin Qafqaz siyasəti: regional mənafeyin qorunması prinsipi Avropa Birliyi və Qafqaz regionu. Qafqaz regionu və enerji layihələri. Qafqaz regionunda etnosiyasi münaqişələr. Rusiya Federasiyası daxilində etnik münaqişələr. Çeçenistan müharibəsi. Gürcüstan ərazisi: Cənubi Osetiya və Abxaziya münaqişəsi. Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində beynəlxalq ictimaiyyətin mövqeyi. Cənubi Qafqaz regionunun əhəmiyyəti, dünyada sülhün və təhlükəsizliyin bərqərar olunmasında yeri və rolu. | |
| 39.2 | **Beynəlxalq mədəni əlaqələr**<br>Beynəlxalq münasibətlərdə mədəniyyətin rolu. Dövlətlərarası əlaqələrdə mədəniyyətin yeri və rolu. BMƏ fənninin predmeti və obyekti. Dövlətlərarası dialoqun qurulmasında BMƏ-in fəaliyyəti. BMƏ ilə məşğul olan şəxslər. BMƏ-nin qurulması. Mədəni irsin qorunmasında BMƏ-nin rolu. Turizm və muzeyşünaslığın BMƏ-nin inkişafında rolu. Kulturoloq, antropoloq, sosioloq, sənətşünas BMƏ ilə məşğul olan şəxslər kimi. Mədəniyyətin funksiyaları. Maddi və mənəvi mədəniyyət. Elitar mədəniyyətin cəmiyyətin inkişafında rolu, Multikultiralizm anlayışı. Multikulturalizmin "sivilizasiyalararası dialoq", "tolerantlıq" mövzuları ilə qarşılıqlı əlaqəsi: oxşar və fərqli cəhətləri. Cəmiyyətdə, mədəniyyətin inkişafında multikulturalizmin rolu. Qərb dövlətlərində multikulturalizm. Azərbaycanda multikulturalizm. Qloballaşma və mədəniyyət. Qloballaşmanın mədəniyyətə təsiri. Təsirinin müsbət və mənfi tərəfləri. Din əsas münasibətlər toplusu kimi. Dinin dövlətlərarası münasibətlərdə yeri. Vatikan diplomatiyası. Dinlərarası mübarizə. S.Hantinqtonun Silvizasiyaların toqquşması nəzəriyyəsi. Dialoq. Dinlərarası dialoq. Xristian mədəni bloku. İslam dünyası birliyi və.s. Teatr və kinematoqrafiya. Beynəlxalq müsabiqələr. Festivallar. Olimpiya oyunları. Turizm bəzi ölkələrin iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi kimi. BMƏ-nin inkişafında Azərbaycan diasporasının yeri və rolu**.** Siyasi mədəniyyət anlayışı. Strukturu. Tərkib hissələri və formalaşması. Q.Almond və S.Verbin fikirləri. Multikulturalizm. Azərbaycan və Multikulturalizm. YUNESKO, İSESKO, TÜRKSOY. Azərbaycan Respublikasının Postsovet məkanında müstəqil dövlətlərlə mədəni əlaqələri. Azərbaycan Respublikasının Avropa ölkələri ilə mədəni əlaqələri. Azərbaycan Respublikasının türk dünyası ilə mədəni əlaqələri. Azərbaycan Respublikasının Asiya dövlətləri ilə mədəni əlaqələri. İslam dünyası və Azərbaycan Respublikası**.** Bakı-İslam mədəniyyətinin paytaxtı kimi. | |
| | **Təcrübə** | **30** |
| | İstehsalat təcrübəsi tələbələrin peşə və praktiki hazırlığına birbaşa yönəlmiş bakalavr təhsilinin məcburi bir növüdür. İstehsalat təcrübəsinin əsas məqsədi tələbələrin tədris prosesində mənimsədikləri nəzəri bilikləri təcrübədə həyata keçirmək və möhkəmləndirmək, ixitsas üzrə praktiki vərdişlərə yiyələnmək və müəyyən peşəkarlıq təcrübəsi əldə etməkdən ibarətdir. Təcrübə müddətində tələbə praktikantlar qurumların bilavasitə beynəlxalq əlaqələri, müəssisədaxili idarəetmənin təşkili, tədqiqatlarının aparılması, təcrübə keçdiyi qurumun xarici əlaqələri haqqında informasiyaların toplanması və təhlili, idarəetmə qərarlarının qəbul edilməsi və s. haqqında lazımi biliklər və praktiki vərdişlər əldə edirlər. | |

| | | |
|---|---|---|
| | **Cəmi** | **240** |

| **İxtisas** | **Ümumi fənlər** | **İxtisas fənləri (o cümlədən mülki müdafiə)** | **ATM tərəfindən müəyyən edilən fənlər** | **Təcrübə** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **050201 - “Beynəlxalq münasibətlər”** | **30** | **120** | **60** | **30** | **240** |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

**Qeyd:** sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsini keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompüter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

***Qeyd:*** *sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsinin düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən

qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, Plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyini əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. "**050201 Beynəlxalq münasibətlər**" ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qaydaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, yerli, yaxud beynəlxalq özəl təşkilat və şirkətlərdə və s.) təşkil oluna bilər.

8.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera planlanması) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) formalaşdırılmalıdır.

8.4. Təcrübənin təşkili ali təhsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri təfərrüatlar əks olunur.

Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.

8.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

8.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkdir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. "**050201 Beynəlxalq münasibətlər**" ixtisası üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında, yerli özünüidarəetmə orqanlarında və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə beynəlxalq əlaqələr üzrə mütəxəssis/məsləhətçi və siyasətçi olaraq fəaliyyət göstərə bilərlər. Budan əlavə, məzunlar tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən sahədə, təşkilatda, idarədə, müəssisədə, birlikdə, qurumda, nazirlik və komitələrdə həmçinin agentliklərdə və araşdırma/beyin mərkəzlərində mütəxəssis olaraq da çalışa bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

9.3. "**050201 Beynəlxalq münasibətlər**" ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "Humanitar və sosial" ixtisaslar qrupuna daxil olan "060213 Beynəlxalq münasibətlər", "060208 Politologiya", "060211 Regionşünaslıq", "060216 Dövlət və ictimai münasibətlər", "060210 Sosiologiya", "060206 Tarix" (bəzi ixtisaslar üzrə), "060204 Jurnalistika" (Beynəlxalq jurnalistika), "060202 Fəlsəfə" (Sosial fəlsəfə), "İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan "060410 Dövlət və bələdiyyə idarəetməsi", "060412 Davamlı inkişafın idarə edilməsi" (Davamlı inkişafın siyasi idarəedilməsi), "060805 Sosial iş" (bəzi ixtisaslar üzrə), "060212 Hüquqşünaslıq" (İnsan hüquqları) Magistr proqramlarında davam etdirə bilərlər.

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə Ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**
**Tədrisin təşkili və yeni təlim texnologiyaları üzrə prorektor:** **dos. Q.A.Qafarov**

**Tədris və metodiki işlər departamentinin rəhbəri:** **İ.U.Rəhimov**

**Hüquq və beynəlxalq münasibətlər kafedrasının müdiri:** **h.e.d., prof. S.Ə.Vəliyev**

**Əlavə 1**

**Təhsil proqramı və fənlər üzrə təlim nəticələri**

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| **Təhsil Proqramının təlim nəticələri (PTN)**<br>**Tələbələr aşağıdakı sadalanan bacarıqları əldə edirlər:** |
|---|
| PTN 1. Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə, liderlik qabiliyyətinə yiyələnir, bir neçə xarici dildən sərbəst istifadə etməyi bacarır. |
| PTN 2. Fiziki və mədəni-coğrafi amillərin daxili və xarici siyasi proseslərə təsirini, onlar arasında qarşılıqlı əlaqəni və asılılığı müəyyən edə bilir; bu amillərin münaqişələrin, mədəni-sosial proseslərin inkişafında rolunu təhlil etməyi bacarır. |
| PTN 3. Müasir beynəlxalq münasibətlərdə baş verən hadisə, proses və təzahürləri təhlil edərkən bu sahədə öyrəndiyi tarixi biliklərdən istifadə etməyi bacarır; müasir siyasi proseslərlə bağlı irəli sürdüyü fikirləri arqumentləşdirmək üçün beynəlxalq münasibətlər tarixindən mənimsədiyi biliklərdən istifadə etməyi bacarır. |
| PTN 4. Müasir beynəlxalq münasibətlər sistemini, siyasi sistemləri, sisyasi rejimləri, siyasi partiyaları, dövlət hakimiyyət orqanlarının fəaliyyətini, müxtəlif ölkələrin siyasi sistemlərini müqayisəli əsasda təhlil etməyi, bu məqsədlə siyasi təlimlərdən, nəzəriyyələrdən istifadə etməyi bacarır. |
| PTN 5. Çağdaş beynəlxalq siyasi prosesləri və siyasi institutların fəaliyyətini qiymətləndirmək, habelə mühakimələr və proqnozlar irəli sürmək bacarığına; Dünyanın müxtəlif regionlarında reallaşan inteqrasiya proseslərini müqayisəli əsasda tənqidi təhlil edərək, əsas problemləri müəyyən etməyi və bütövlükdə inteqrasiya proseslərinin inkişaf perspektivlərinə dair proqnozlar irəli sürməyi bacarır. |
| PTN 6. Müasir beynəlxalq münasibətlərin əsas problemlərini və çağırışları nəzəri təhlil etməyi bacarmaq; Münaqişələrə (xüsusilə daxili münaqişələrə) dair müasir nəzəriyyələri praktik situasiyaların üzərində tətbiq edə bilmək; Münaqişələrin həllinə dair yanaşmaların, siyasi, hüquqi, hərbi və digər vasitələrin konkret münaqişələrin həllində səmərəliliyini müəyyən etməyi bacarır. |
| PTN 7. Xarici siyasət sahəsində qərarların qəbul edilməsi və onların reallaşdırılması prosesini, dövlətlərin xarici siyasət kursunu tənqidi təhlil etməyi, xarici siyasətə dair nəzəriyyələrdən müxtəlif dövlətlərin xarici siyasət kursunun proqnozlaşdırılması prosesində istifadə etməyi bacarır. |
| PTN 8. Beynəlxalq münasibətlərdə hadisə və prosesləri kəmiyyət və keyfiyyət metodlarından istifadə edərək tədqiq etmək səriştəsinə, beynəlxalq münasibətlərin əsas elmi nəzəriyyə və yanaşmalarını praktik situasiyalar üzərində tətbiq etməyi bacarır; Müasir beynəlxalq münasibətlərin əsas problemlərini və çağırışları nəzəri təhlil etməyi bacarır. |
| PTN 9. Təhlükəsizliklə bağlı müasir nəzəri-konseptual yanaşmaları konkret praktik situasiyaların təhlilində tətbiq edir; aparıcı dövlətlərin milli təhlükəsizlik konsepsiyalarını və siyasətlərini tənqidi təhlil edərək müxtəlif meyarlar araında ümumiləşdirməyi və qiymətləndirməyi bacarır; Qlobal strateji təhlükəsizlik, regional və transmilli təhlükəsizlik problemlərinin yaranma səbəblərini təhlil etməyi və onların həlli yollarına dair mülahizələr irəli sürməyi bacarır. |
| PTN 10. Azərbaycanın xarici siyasətinin konseptual əsaslarını, prioritetlərini və istiqamətlərini izah etməyi və əsaslandırmağı bacarır, bu sahədə dərin təhlillər aparmaq səriştəsi var; bütün diplomatik sənədləri tərtib və icra etmək, diplomatik sahədə fəaliyyət göstərmək üçün zəruri beynəlxalq sənədləri və normaları tətbiq etmək bacarıqları var; ölkə xaricində diplomatik strukturların işini təşkil etmək və idarə etməyi bacarır. |

| |
|---|
| PTN 11. Azərbaycan Respublikasının təhlükəsizlik mühiti, əsas təhdidlər və onlara qarşı mübarizəyə dair sistemli bilikləri formalaşdırılıb; türkçülük ideologiyasının Azərbaycanın müasir xarici siyasətinə təsirlərini ölçməyi və Azərbaycançılıq ideologiyasında yerini və əhəmiyyətini müəyyən etməyi bacarır; Türk xalqlarının müasir problemləri, xüsusilə siyasi, etno-mədəni təzyiqlərə məruz qalmasına dair tədqiqat aparmağı və əldə etdiyi nəticələri təqdim etməyi bacarır; Azərbaycan Respublikasının Milli Təhlükəsizliyinin konseptual və hüquqi əsaslarını təhlil edərək onun tətbiq olunduğu mühiti izah etməyi bacarır. |
| PTN 12. Beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqələrinin əsas xüsusiyyətlərini, beynəlxalq təşkilatların və beynəlxalq müqavilələrin milli hüquqa tətbiqetmə üçün əhəmiyyətini bilmək, nəhayət beynəlxalq hüququn ayrı-ayrı sahələrinin əhəmiyyətindən və əsas xüsusiyyətlərindən istifadə etməklə, Azərbaycan Respublikası dövlətdaxili qanunvericiliyinin müxtəlif sferalarda inkişaf etdirilməsini əsaslandırmaq bacarığına malikdir. |
| PTN 13. İqtisadi nəzəriyyənin, mikro və makro iqtisadiyyatın əsaslarını, Beynəlxalq iqtisadi münasibətlər üzrə anlayışları bilmək, müxtəlif ölkələrin iqtisadiyyatını müqayisəli şəkildə təhlil etməyi bacarmaq, beynəlxalq biznes, beynəlxalq ticarət, tədiyə balansı və beynəlxalq maliyyə ilə bağlı anlayışları dərindən bilmək, müxtəlif milli iqtisadiyyatlar arasındakı qarşılıqlı münasibətlər, onların beynəlxalq iqtisadiyyatdakı rolu, təkamülü və nəticələri haqqında biliklərə sahib olmaq, dövlət özəl sektor tərəfindən həyata keçirilən beynəlxalq iqtisadi münasibətlərdə optimal qərar qəbul etmək prossesi və metodlarını bilmək, iqtisadi diplomatiya yolu ilə bazar payını artırmaq və riskləri azaltmaq istiqamətində təkliflər hazırlamağı bacarır; |
| PTN 14. Strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; İnformasiya və psixoloji savaş şəraitində müəyyən olunmuş strateji idarəetmə vəzifələrini icra etməyi bacarır; Siyasət, sosial və iqtisadi sahələrdə idarəetməni həyata keçirməyi bacarır. |

**Fənn üzrə təlim nəticələri (FTN)**

| **“Azərbaycan tarixi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən, ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır. |
| FTN2 Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| FTN3 Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| FTN4 Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| FTN5 Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| FTN6 Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |
| FTN7 Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |

| **“Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, “Ulu öndər Heydər Əliyev və Azərbaycan dili” mövzusunda təqdimatlar hazırlamağı öyrənmək; “Azərbaycan dilində işgüzar və akademik |

| |
|---|
| kommunikasiya” fənninin məqsəd və vəzifələrini bilmək. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| FTN2 Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi, rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| FTN3 Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |
| FTN4 Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| FTN5 Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| FTN6 Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| FTN7 Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarmaq. |

| **“Xarici dildə işgüzar və akademik kommunikasiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirmək. |
| FTN2 Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilmək; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilmək. |
| FTN3 Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilmək; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN4 Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfrrüatla zənginləşdirmə və s. kimi texnologiyalara yiyələnmək. |
| FTN5 İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN6 Öyrəndiyi dildə yazılı təqdimatlar hazırlamağı bacarır. |
| FTN7 Konkret sual ətrafında rabitəli, məntiqli və adekvat şifahi və yazılı mətn formalaşdırmaq. |

| **“Fəlsəfə” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri, varlıq haqqında fəlsəfi təlim, materiya anlayışı üzrə biliklərə yiyələnir |
| FTN2 Müasir elm materiyanın quruluşu haqqında, hərəkət, məkan və zaman, dialektikanın əsas qanunları və kateqoriyalarını təhlil etməyi bacarır |
| FTN3 Fəlsəfədə şüur problemi, insanın fəlsəfi anlamı, təbiət və cəmiyyət, idrak və onun strukturu, elmi idrak və onun metodları, yaradıcılıq və intuisiya, elmin etikası, sosial idrakın spesifikliyini təhlil etməyi bacarır |

| |
|---|
| FTN4 Özüinkişaf edən sistem olan cəmiyyəti, ictimai həyatın əsas sferaları öyrənilir |
| FTN5 İqtisadi həyatın fəlsəfi səpkisi, cəmiyyətin sosial sferası, siyasi həyatın fəlsəfi təhlili, cəmiyyətin mənəvi həyatını təhlil etməyi bacarır |
| FTN6 Tarixi prosesin subyektləri və hərəkətverici qüvvələri, mədəniyyət və sivilizasiya, şəxsiyyət və sosial dəyərlər təhlil və tədqiq edilir |

| **“Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycan Respublikası Konstitusiyasının təşəkkülü və mahiyyətini izah etməyi bacarır |
| FTN2 Proqrama daxil olan digər normativ hüquqi aktların mahiyyətini izah etməyi bacarır |
| FTN3 Azərbaycan Respublikası Konstitusiyası və digər normativ hüquqi aktların elmi prinsiplərinin metodoloji əsalarını təhlil etməyi bacarır |
| FTN4 Azərbaycan Respublikası Konstitusiyasını mənimsəməklə təhlil etməyi bacarır |
| FTN5 Azərbaycan Respublikası Konstitusiyası və digər normativ hüquqi aktların tərkibinin dinamik olması mahiyyətini izah etməyi bacarır |
| FTN6 Proqramda nəzərdə tutulan bütün problemlər üzrə elmi dünyagörüşünü formalaşdırmağı bacarır |

| **“Məntiq” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Məntiqi düşünmə qabiliyyətini qiymətləndirir, məntiqi qanunauyğunluqları qavramaq və tətbiq etmək bacarığını inkişaf etdirir |
| FTN2 Gələcəyin peşələri üçün axtarılan ən önəmli qabiliyyətlərdən biri olan analitik düşünmə məlumatları təhlil edərək problemləri başa düşmək və həll etmək üçün aparılan sistemli düşünmə tərzi formalaşdırır |
| FTN3 Verbal sahə ilə söz ehtiyatının zənginliyi, sözlə ifadə olunmuş məlumatı təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə, müxtəlif sözlərin istifadəsində incəlikləri hissetmə qabiliyyətləri inkişaf etdirilir |
| FTN4 Fiqurlarla bağlı sahəsi ilə vizual məlumatı (fiqur və ya şəkil formasında verilənləri) təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə qabiliyyətləri artırılır |
| FTN5 Məntiqi-riyazi mövzular ilə praktiki riyazi təfəkkürün inkişaf səviyyəsi, ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək qabiliyyətləri inkişaf etdirilir |
| FTN6 Anlayışların ümumi səviyyəsini, növlərini, onlar arasında məntiqi münasibətləri bacarmaq |

| **“Etika” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Etik fikir, onun təkamülünün əsas mərhələləri: Qədim Hindistan və Çində etik fikir, antik dövrdə etik fikir, orta əsrlər və yeni etik fikir, Azərbaycanda etik fikir, islam etikası haqqında biliklərə malik olur |
| FTN2 Əxlaqın mahiyyəti və əsas funksiyaları ilə əlaqədar biliklərə malik olur |
| FTN3 Əxlaq və ictimai şüurun digər formaları, əxlaqi şüur və fəaliyyət ilə əlaqədar biliklərə malik olur |
| FTN4 Etikanın əsas kateqoriyaları: xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, xoşbəxtlik və həyatın mənası haqqında biliklərə malik olur |
| FTN5 Tətbiqi etika haqqında biliklərə malik olur |
| FTN6 Peşə etikası haqqında biliklərə malik olur |

| “Multikulturalizm” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1 Multikulturalizm fənninin mahiyyətinin və əhəmiyyətinin öyrənilməsi bacarığı. |
| FTN2 Azərbaycanda yaşayan müxtəlif azsaylı xalqların adət-ənənələrini təhlil etməyi bacarır. |
| FTN3 Multikulturalizmin sosial-iqtisadi inkişafa təsirlərini təhlil etməyi bacarır. |
| FTN4 Multikulturalizmin xarici siyasətə təsirlərini təhlil etməyi bacarır. |
| FTN5 Multikulturalizmi Azərbaycan Respublikasının Dövlət siyasəti olaraq təhlil etməyi bacarmaq. |
| FTN6 Azərbaycan multikulturalizmi ilə dünya multikulturalizm nümunələrini müqayisə edib analiz etmək bacarığı. |

| “Sosiologiya” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1 Cəmiyyət və onu təşkil edən sosial institutlar, sosial qruplar və təşkilatların strukturunu, məzmununu və fəaliyyətinin əhəmiyyətini mənimsəyib. |
| FTN2 Cəmiyyət – şəxsiyyət münasibətlərini və onun gedişatını, bir-birinə qarşılıqlı təsirlərini bilir |
| FTN3 Cəmiyyətdə milli və etnik kimlikləri tanıyır, onların müsbət birgə mövcudluqlarını, əməkdaşlıqlarını təşviq edir. |
| FTN4 Sosioloji tədqiqatlar aparmaq üçün tədqiqat proqramı hazırlayır. |
| FTN5 İctimai problemlərin həllində sosioloji təhlillərdən istifadə edir. |
| FTN6 Sosial araşdırmalar yolu ilə gündəmdə mövcud ictimai-siyasi, sosial hadisələri öyrənir və problem olduqda həll yolları təklif edir. |

| “İnformasiya texnologiyaları (ixtisas üzrə)” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1 Tədrisi nəticəsində fərdi kompüterin tərkib hissələrini öyrənirlər |
| FTN2 Müasir kompüterlərin proqram təminatını: Əməliyyat sistemləri, Microsoft Office proqramlarını, kompüter qrafikasını nəzəri olaraq bilirlər |
| FTN3 İKT araşdırmalarının köməyi ilə alternativ qərarların varlığını görəcək. Fəaliyyətinin planlaşması ilə əlaqəli strateji qərarları qiymətləndirir |
| FTN4 İnformasiya resurslarından daha səmərəli istifadə etmək bacarığına malik olurlar |
| FTN5 Çeşidli informasiya formaları ilə işləməyi bacarır |
| FTN6 Müasir İKT imkanlarından hər yerdə və hər zaman istifadə etmək bacarığını qazanır |

| “İnformasiyanın idarə edilməsi” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1 Fayl texnologiyalarını, fayl sistemlərini öyrədilir. |
| FTN2 Web texnologiyaları, informasiya resurslarının axtarışı, informasiya ilə məqsədyönlü rəftar, düzgün seçilmə və emal başa salınır. |
| FTN3 Elektron iqtisadiyyat, onun formalaşması, elektron kommersiya, elektron pul, onların müasir həyatda rolu və onlardan istifadə qaydaları öyrədilir. |
| FTN4 İqtisadiyyatın müxtəlif sahələrində, məsələn turizm, bank, təhsil və s. kimi sahələrdə müasir İKT-nin texniki və proqram baxımından tətbiqindən danışılır. |
| FTN5 Dövlət idarəçiliyində elektron hökumət layihəsi ilə iş başa salınır və s. |
| FTN6 Müştərilərlə münasibətlərin elektron idarə edilməsini, sistemlərin inkişafını təhlil etməyi bacarmaq; |

| “Sahibkarlığın əsasları və biznesə giriş” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1 Sahibkarlıq mühiti və rəqabəti, kiçik və orta sahibkarlıq ilə bağlı bilik və bacarıqlar qazanır |
| FTN2 Sahibkarlıq fəaliyyətində vergiqoyma, qiymət siyasəti, menecment və marketinq sistemini öyrənir |
| FTN3 Biznesin təşkilati-hüquqi formalarını mənimsəyir |
| FTN4 GZİT təhlil, sahibkarlığın xarici və daxili mühitini təhlil edə bilmək bacarığı |
| FTN5 Kommersiya, maliyyə, məsləhət, istehsal sahibkarlığı ilə bağlı bilik və bacarıqlar qazanır |
| FTN6 Uçot, yenidən bölüşdürmə, stimullaşdırıcı, balanslaşdırıcı və istehsalın yerləşdirilməsi ilə bağlı bilik və bacarıqlar qazanır |

| “Siyasi coğrafiya” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1 Fiziki və mədəni-coğrafi amillərin siyasi proseslərə təsirini müəyyən etməyi və izləməyi bacarmaq. |
| FTN2 Müasir siyasi proseslərə tarixən formalaşan coğrafi sərhədlərin təsirini müəyyən etməyi bacarmaq. |
| FTN3 Coğrafi biliklər və arqumentlər əsasında beynəlxalq siyasi prosesləri qiymətləndirmək səriştəsinə malik olmaq. |
| FTN4 Dövlətlərin xarici siyasi davranışlarının coğrafi səbəblərini araşdırmağı və əsaslandırmağı bacarmaq. |
| FTN5 Etnik, milli, dini və daxili siyasi proseslərin coğrafi səbəblərini və bağlılığını müəyyən etməyi bacarmaq. |
| FTN6 Sərhədyanı və ərazi münaqişələri, habelə vətəndaş müharibələrinin coğrafi amillərlə əlaqəsini və bağlılığını aşkar etməyi bacarmaq. |

| “Beynəlxalq münasibətlər tarixi” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1 Beynəlxalq münasibətlər tarixi üzrə orjinal mənbələrlə/sənədlərlə işləməyi bacarmaq. |
| FTN2 Beynəlxalq münasibətlər tarixinin inkişaf qanunauyğunluqları və əsas mərhələləri haqqında qazandığı sistemli bilikləri tətbiq etmək səriştəsinə malik olmaq. |
| FTN3 Müxtəlif dövrlərdə mövcud olan xarici siyasət konsepsiyalarını, prinsipləri və doktrinaları müasir siyasi proseslərlə əlaqələndirməyi və bu əsasda ümumiləşmiş nəticələr çıxararaq hadisələrin inkişaf tendensiyalarını müəyyən etməyi bacarmaq. |
| FTN4 Beynəlxalq münasibətlər tarixinin müxtəlif hadisə və proseslərini müasir siyasi, mədəni proseslərlə əlaqələndirməyi və hadisə və proseslər arasında varisliyi izləməyi bacarmaq. |
| FTN5 Beynəlxalq münasibətlər tarixindən əldə etdiyi biliklərdən metodoloji əsas kimi istifadə edərək digər sahələrdə tədqiqat aparmaq səriştəsinə malik olmaq. |
| FTN6 Beynəlxalq münasibətlər tarixinin qlobal və regional sistemlərini müqayisə edərək, müasir beynəlxalq sistemin təkamülü kontekstində dünyanın perspektiv inkişafına dair sadə proqnozlar irəli sürməyi bacarmaq. |
| FTN7 Müasir münaqişələrin və böhranların tarixi səbəblərini müəyyən etməyi və izah etməyi bacarmaq. |

| “Türk xalqlarının müasir tarixi” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1 Türkçülük ideologiyasının müasir ideoloji savaşlarda üstünlüklərini bilmək və siyasi hadisə və |

| |
|---|
| proseslərin izahında tətbiq etməyi bacarmaq. |
| FTN2 Türkçülük ideologiyasının Azərbaycanın müasir xarici siyasətinə təsirlərini ölçməyi bacarmaq. |
| FTN3 Türkçülüyün Azərbaycançılıq ideologiyasında yerini və əhəmiyyətini müəyyən etməyi bacarmaq. |
| FTN4 XX-XXI əsrlərdə türk xalqlarının tarixinin əsas inkişaf mərhələlərini, problemləri təhlil etməyi, bununla bağlı mühakimələr irəli sürməyi bacarmaq. |
| FTN5 Türk xalqları/dövlətləri birliyinin vacibliyi əsaslandırmağı və bu birliyin möhkəmləndirilməsinə, habelə perspektivlərinə dair aydın mülahizələr irəli sürməyi bacarmaq. |
| FTN6 Türkdilli dövlətlərin müasir siyasi sistemləri, inkişaf problemləri və xarici siyasətlərinə dair tədqiqat aparmağı və əldə etdiyi nəticələri təqdim etməyi bacarmaq. |
| FTN7 Türk xalqlarının müasir problemləri, xüsusilə siyasi, etno-mədəni təzyiqlərə məruz qalmasına dair tədqiqat aparmağı və əldə etdiyi nəticələri təqdim etməyi bacarmaq. |

| **“Siyasi fikir tarixi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Müxtəlif tarixi dövrlərdə sosial-siyasi düşüncələrin təkamülünü, əsas konsepsiyaları müqayisə etməyi və müasir siyasi proseslərə təsiri kontekstində qiymətləndirməyi bacarmaq. |
| FTN2 Müasir siyasi sistemin formalaşmasına təsir etmiş vacib elmi nəzəri təlimləri ilkin mənbədən oxumağı və təhlil etməyi bacarmaq. |
| FTN3 Demokratiya, insan hüquqları və azadlıqları, hakimiyyətin bölünməsi, ədalət, nizam və d., müasir dövrdə aktual olan kateqoriyaların meydana çıxması, siyasi fikir tarixində inkişaf etdirilməsi, qərb və şərq siyasi fikrində bu kateqoriyalara baxışların təhlili əsasında siyasi proseslərə islahatçı və yenilikçi kimi yanaşmağı bacarmaq. |
| FTN4 İctimai-siyasi institutların və proseslərin formalaşması və inkişafı haqqında qazandığı biliklər əsasında peşə fəaliyyətində səmərəli qərarlar qəbul etmə səriştəsinə malik olmaq. |
| FTN5 Xarici siyasi və daxili siyasi proseslərin təhlili üçün qazandığı bilikləri tətbiq etməyi bacarmaq. |
| FTN6 Siyasi sahədə tədqiqat aparmaq və təhlil etmək üçün qazandığı metodoloji bilikləri tətbiq etməyi bacarmaq. |

| **“Siyasət nəzəriyyəsi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Seçki prosesinin və siyasi hakimiyyətin formalaşmasını təhlil edərək onun demokratikliyini ölçmə səriştəsinə. |
| FTN2 Siyasi proseslərdə iştirak etmək, liderlik və idarəetməyi bacarmaq. |
| FTN3 İdeoloji və psixoloji hücumlara qarşı müqavimət göstərmək və ölkənin siyasi maraqlarını müdafiə etmək bacarığına. |
| FTN4 Müasir politoloji konsepsiyaları və nəzəriyyələri mənimsəyərək siyasi prosesləri təhlil etmək və qiymətləndirməyi bacarmaq. |
| FTN5 Siyasi prosesləri yönləndirməyi bacarmaq. |
| FTN6 Siyasi sistemlər, siyasi rejimlər, siyasi partiyalar, ictimai hərəkatlar, siyasi ideologiya, siyasi psixologiya və siyasi mədəniyyət haqqında biliklərə əsaslanaraq siyasi sahədə tədqiqat aparmağı bacarmaq. |

| **“Müqayisəli siyasi sistemlər” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Siyasi sistem nəzəriyyəsinə dair əsas yanaşmaları nəzərdən keçirərək, siyasi sistem, onun strukturu, əsas komponentləri haqqında əsaslı biliklərə yiyələnərək siyasi sistemlərin inkişafını |

| |
|---|
| proqnozlaşdırma bacarmaq. |
| FTN2 Dünyanın müxtəlif ölkələrinin siyasi sistemlərini müqayisəli təhlil etmək və fərqli meyarlar əsasında ümumiləşmələr aparmağı bacarmaq. |
| FTN3 Avropa, Amerika, Asiyanın aparici ölkələrinin siyasi sistemlərinin fəaliyyət mexanizmlərini və xüsusiyyətlərini öyrənərək, onların inkişaf meyllərini müəyyən etməyi bacarmaq. |
| FTN4 Müxtəlif dövlətlərdə qanunverici-icraedici hakimiyyətlər əsasında qarşılıqlı münasibətlərin xüsusiyyətləri, müxtəlif siyasi rejimlərin spesifikası, mərkəzi və yerli hakimiyyətlər arasında mövcud olan münasibətləri təhlil edərək konkret ölkədə demokratiyanın inkişaf səviyyəsini müəyyən etməyi bacarmaq. |
| FTN5 Müxtəlif dövlətlərin siyasi partiyaları, partiya və seçki sistemləri haqqında biliklərə əsaslanaraq bu sahədə müstəqil tədqiqat/araşdırma aparmağı bacarmaq. |
| FTN6 Siyasi sistemlərin ideoloji əsaslarının və dəyərlər sisteminin dərindən təhlili əsasında milli siyasi sistemin inkişafında faydalı olacaq təklif və tövsiyələri irəli sürməyi bacarmaq. |

| **“Xarici siyasətin təhlili” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Xarici siyasətə dair sənədləri tərtib və icra etməyi bacarır. |
| FTN2 Xarici siyasət sahəsində qərar qəbulu bacarıqlarına malik olmaq. |
| FTN3 Xarici siyasətə dair təhlillər və tədqiqatlar aparmaq, qiymətləndirmə və proqnoz verməyi bacarmaq. |
| FTN4 Beynəlxalq münasibətlərdə aparıcı rol oynayan ölkələrin xarici siyasətinin formalaşması, qərar qəbulu və həyata keçirilməsi prosesini təhlil etmək və müxtəlif meyarlar əsasında ümumiləşdirməyi bacarmaq. |
| FTN5 Xarici siyasi mühitin inkişaf və dəyişməsini proqnozlaşdırmağı bacarmaq. |
| FTN6 Xarici siyasətə dair elmi nəzəriyyələri və konsepsiyaları praktik situasiyalar üzərində tətbiq etməyi bacarmaq. |

| **“Beynəlxalq münasibətlər nəzəriyyəsi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Beynəlxalq münasibətlərin əsas elmi nəzəriyyə və yanaşmalarını tənqidi təhlil edərək onlara dair müstəqil fikir bildirmək, mülahizələr/mühakimələr irəli sürməyi bacarmaq. |
| FTN2 Beynəlxalq münasibətlərin əsas elmi nəzəriyyə və yanaşmalarını praktik situasiyalar üzərində tətbiq etməyi bacarmaq. |
| FTN3 Beynəlxalq münasibətlərdə hadisə və proseslərin inkişafını nəzəri qanunauyğunluqlar əsasında təhlil etməyi bacarmaq. |
| FTN4 Müasir beynəlxalq münasibətlərin əsas problemlərini və çağırışları nəzəri təhlil etməyi bacarmaq. |
| FTN5 Beynəlxalq münasibətlərə dair müxtəlif elmi nəzəriyyələrin və yanaşmaların müəlliflərinin əsərlərini ilkin mənbələrdən oxumaq və tənqidi təhlil etməyi bacarmaq. |
| FTN6 Beynəlxalq münasibətlərdə baş verən hadisələri müstəqil olaraq təhlil etməyi bacarmaq. |

| **“Müasir diplomatiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Bütün diplomatik sənədləri tərtib və icra etməyi bacarmaq. |
| FTN2 Diplomatik danışıqları aparmaq üçün zəruri ünsiyyət normalarını və metodlarını ehtiva edən qabiliyyət və bacarıqlara malik olmaq. |
| FTN3 Müasir diplomat üçün zəruri olan şəxsi və peşəkar keyfiyyətləri – vətənpərvərlik, geniş |

| |
|---|
| erudisiya, dürüstlük, intizam, etibarlılıq, gözəl nitq – özündə aşılamaq və formalaşdırmaq qabiliyyətinə malik olmaq. |
| FTN4 Dünyanın aparıcı dövlətlərinin diplomatik/siyasi fəaliyyətini təhlil etmək və onların təcrübəsindən peşəkar fəaliyyətində istifadə etməyi bacarmaq. |
| FTN5 Ölkə xaricində diplomatik strukturların işini təşkil etmək və idarə etmək üçün zəruri bacarıqlara malik olmaq. |
| FTN6 Diplomatik sahədə fəaliyyət göstərmək üçün zəruri beynəlxalq sənədləri və normaları tətbiq etməyi bacarmaq. |

| **"Beynəlxalq təhlükəsizlik" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Beynəlxalq təhlükəsizlik problemlərinin və beynəlxalq təhlükəsizlik proseslərinin milli təhlükəsizliyə təsirlərini müəyyən etməyi bacarmaq. |
| FTN2 Qlobal strateji təhlükəsizlik, regional və transmilli təhlükəsizlik problemlərinin yaranma səbəblərini təhlil etməyi və onların həlli yollarına dair mülahizələr irəli sürməyi bacarmaq. |
| FTN3 Təhlükəsizliklə bağlı müasir nəzəri-konseptual yanaşmaları öyrənərək konkret praktik situasiyaların təhlilində tətbiq etməyi bacarmaq. |
| FTN4 Dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik konsepsiyalarını/doktrinalarını və siyasətlərini tənqidi təhlil edərək müxtəlif meyarlar əsasında ümumiləşdirməyi və qiymətləndirməyi bacarmaq. |
| FTN5 Beynəlxalq təhlükəsizlik mühitində baş verən dəyişikliklərin inkişaf meyllərini müəyyən etməyi bacarmaq. |
| FTN6 Beynəlxalq təhlükəsizlik strukturlarının və qurumlarının fəaliyyətini tənqidi təhlil edə bilmək və qiymətləndirməyi bacarmaq. |

| **"İnteqrasiya prosesləri və beynəlxalq təşkilatlar" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 İnteqrasiya nəzəriyyələrini təhlil edə bilir və müasir inteqrasiya birliklərinin təhlilində tətbiq etməyi bacarır. |
| FTN2 Qlobal və regional beynəlxalq təşkilatların fəaliyyətini öyrənərək çoxtərəfli əməkdaşlığın dərinləşdirilməsini və inteqrasiya mərhələsinə keçməsini əngəlləyən səbəbləri müəyyən etməyi bacarmaq. |
| FTN3 Dünyanın müxtəlif regionlarında reallaşan inteqrasiya proseslərini müqayisəli əsasda tənqidi təhlil edərək, əsas problemləri müəyyən etməyi və bütövlükdə inteqrasiya proseslərinin inkişaf perspektivlərinə dair proqnozlar irəli sürməyi bacarmaq. |
| FTN4 Beynəlxalq qeyri-hökumət təşkilatlarının qlobal problemlərin həllində rolunu tənqid etməyi bacarmaq. |
| FTN5 BMT-nin və Avroatlantik strukturların fəaliyyətinin tənqidi təhlili əsasında milli inkişaf üçün potensial imkanları və çağırışları müəyyən etməyi bacarmaq. |
| FTN6 İnteqrasiya prosesləri nəticəsində formalaşan qlobal cəmiyyətin yaratdığı imkanları və çağırışları müəyyən etməyi bacarmaq. |

| **"Müasir münaqişələr və onların həlli" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Münaqişələrə (xüsusilə daxili münaqişələrə) dair müasir nəzəriyyələri öyrənərək praktik situasiyaların üzərində tətbiq etməyi bacarmaq. |
| FTN2 Münaqişələrin səbəblərini izah edə bilmək və onların növlərini, xüsusiyyətlərini müəyyən |

| |
|---|
| etməyi bacarmaq. |
| FTN3 Münaqişələrin beynəlxalq münasibətlər sisteminə təsirini müəyyən etməyi bacarmaq. |
| FTN4 Münaqişələrin həllinə dair yanaşmaları təhlil edərək, siyasi, hüquqi, hərbi və digər vasitələrin konkret münaqişələrin həllində səmərəliliyini müəyyən etməyi bacarmaq. |
| FTN5 Münaqişələrin tənzimlənməsi və həlli texnologiyalarının praktik tətbiqi hallarını təhlil edərək, onların səmərəliliyini müəyyən etməyi bacarmaq. |
| FTN6 Müasir dövrdə vətəndaş müharibələrinin/münaqişələrinin geniş yayılmasının beynəlxalq sistemin inkişaf xüsusiyyətləri ilə əsaslandırmağı bacarmaq. |

| **“Azərbaycan Respublikasının xarici siyasəti” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycan Respublikasının xarici siyasətinin konseptual əsaslarını, prioritetlərini və istiqamətlərini izah etməyi və əsaslandırmağı bacarır, bu sahədə dərin təhlillər aparmaq səriştəsi var. |
| FTN2 Azərbaycan Respublikasının xarici siyasət strukturlarını, qərar qəbulu və həyata keçirilmə mexanizmini təhlil edə bilmək və praktik nümunələr əsasında izah etməyi bacarmaq. |
| FTN3 Azərbaycan Respublikasının müxtəlif dövlətlərlə siyasi-diplomatik, iqtisadi və mədəni sahələrdə ikitərəfli və çoxtərəfli münasibətlərini tənqidi təhlil etmək və müxtəlif ölçülər əsasında qiymətləndirməyi bacarmaq. |
| FTN4 Ermənistan Azərbaycan münaqişəsinə dair danışıqlar prosesinin mərhələləri, qəbul edilən sənədlərin və bəyannamələrin tənqidi təhlili və münaqişə ətrafında yaranmış siyasi-beynəlxalq siyasi vəziyyətin öyrənilməsi əsasında onun həlli perspektivlərinə dair proqnozlar irəli sürməyi bacarmaq. |
| FTN5 Azərbaycanın dünyada güclənən mövqelərini elmi və siyasi cəhətdən izah etməyi bacarmaq. |
| FTN6 Azərbaycan Respublikasının müxtəlif istiqamətlərdə və formalarda həyata keçirilən xarici siyasətinə dair sənədləri tənqidi təhlil etmək, xarici siyasətin səmərəliliyinin artırılmasına dair fikir və mülahizələr irəli sürməyi bacarmaq. |

| **“Siyasi təhlil və tənqidi təfəkkür” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Müstəqil tədqiqat aparmaq və təhlil edə bilmək üçün müxtəlif tədqiqat metodlarından istifadə etməyi bacarmaq. |
| FTN2 Müxtəlif sorğular keçirmək, nəticələrini təhlil etmək və ümumiləşdirməyi bacarmaq. |
| FTN3 Statistik metodlardan istifadə edərək tədqiqat apara bilmək. |
| FTN4 Topladığı faktları, informasiyaları kompüter proqramları vasitəsi ilə emal etməyi bacarmaq. |
| FTN5 Mürəkkəb məsələlərin bir neçə mümkün həlli yolunu müəyyən etmək, alternativ mülahizələr irəli sürmə bacarığına yiyələnmək. |
| FTN6 Əsaslandırılmış nəticələr çıxarmaq məqsədi ilə məlumatları və faktları sintez etmə bacarığına yiyələnmək, taftalogiya, ziddiyyət, səfsətə və paradoksları müyyən edə bilmək. |
| FTN7 Arqumentlərin məntiqiliyini və etibarlılığını, eləcə də müvafiq məlumatın və faktların verilən arqumentlə bağlılıq və arqumentə aidiyyət dərəcəsini dəyərləndirə bilmək. |
| FTN8 Ümumi məntiqi və ritorik səfsətələri müəyyən edə bilmək. |
| FTN 9 Tezis, mülahizə, mühakimə və arqumentləri formalaşdıra bilmək. |
| FTN10 Eyniyyət, ziddiyyətsizlik, üçüncünü istisna və kafi əsas qanunu kimi formal məntiq qanunlarını bilmək, bunları əqli nəticə və sübut prosesində tətbiq edə bilmək. |

| **“Beynəlxalq hüquq” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Beynəlxalq hüququn mahiyyətini və fəaliyyət istiqamətlərini bilməklə beynəlxalq |

| |
|---|
| münasibətlərin tənzimlənməsi qaydalarından, mənbələrindən, prinsiplərindən istifadə edə bilmək. |
| FTN2 Beynəlxalq müqavilələrin mahiyyətini və əsas elementlərini bilməklə dövlətlərarası münasibətlərin tənzimlənməsində onların zəruri rolunu əsaslandırmaq. |
| FTN3 Beynəlxalq hüququn əsas prinsiplərini, o cümlədən beynəlxalq hüquq normalarının məzmununu bilməklə onların əhəmiyyətini qiymətləndirmək. |
| FTN4 Beynəlxalq təşkilatların beynəlxalq və milli hüquqi tənzimetmə üçün vacib əhəmiyyətini əsaslandırmaq. |
| FTN5 Beynəlxalq hüququn ayrı-ayrı sahələrinin ayrılıqda əsas xüsusiyyətlərini və fəaliyyət istiqamətlərini geniş məzmunda təhlil etmək. |
| FTN6 Beynəlxalq hüququn ayrı-ayrı sahələrinin əhəmiyyətindən və əsas xüsusiyyətlərindən istifadə etməklə, Azərbaycan Respublikası dövlətdaxili qanunvericiliyinin müxtəlif sferalarda inkişaf etdirilməsini əsaslandırmaq. |
| FTN7 Beynəlxalq hüququn prinsip və normalarından istifadə etməklə aktual beynəlxalq problemləri təhlil etməyi və qiymətləndirməyi bacarmaq. |

| **“İqtisadiyyatın əsasları” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 İqtisadi nəzəriyyənin əsas kateqoriyaları və anlayışları haqqında biliklər əldə etmək; iqtisadi subyektlərin davranış prinsiplərini öyrənmək. |
| FTN2 İqtisad elminin konsepsiyaları və istiqamətləri, iqtisadi modellər haqqında təhlillərlə tanış olmaq; iqtisadiyyatda bazar mexanizminin rolu haqqında təsəvvürə malik olmaq, iqtisadi hadisə və prosesləri məzmun və formal təhlilinin ilkin vərdişlərini öyrənmək. |
| FTN3 İqtisadi proseslər, iqtisadi mexanizmlər, iqtisadi resurslar, iqtisadi qanunauyğunluqlar haqqında biliklər əldə etmək. |
| FTN4 Makroiqtisadiyyat və mikroiqtisadiyyat əsasları haqqında biliklər formalaşdırmaq. |
| FTN5 Bazar iqtisadiyyatının fəaliyyət qanunauyğunluqlarını; bazar iqtisadiyyatında dövlətin rolu və funksiyalarını qiymətləndirə bilmək. |
| FTN6 İqtisadi subyektlərin qərar qəbul etmə mexanizmini, ümumi iqtisadi göstəriciləri təhlil etmək. |

| **“Beynəlxalq iqtisadi münasibətlər” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Beynəlxalq iqtisadi münasibətlər, onun anlayışları, inkişaf prosesləri, mexanizmləri, qlobal iqtisadi problemlər haqqında biliklər əldə etmək. |
| FTN2 Müxtəlif ölkələrin iqtisadiyyatını müqayisəli şəkildə təhlil etməyi bacarmaq. |
| FTN3 İqtisadi qloballaşma, dünya təsərrüfatında inteqrasiya prosesləri, beynəlxalq iqtisadi inteqrasiyanın forma və səviyyələrini təhlil etmək; beynəlxalq biznesin əhəmiyyətini dərk etmək. |
| FTN4 Beynəlxalq ticarət nəzəriyyələrini, beynəlxalq səviyyədə ticarətin tənzimlənməsi məsələlərinə dair sistemli biliklər formalaşdırmaq qabiliyyəti. |
| FTN5 Beynəlxalq işçi qüvvəsi bazarı, beynəlxalq işçi qüvvəsinin miqrasiyası haqqında bilikləri əldə edir. |
| FTN6 Beynəlxalq maliyyə və maliyyə bazarlarına dair anlayışları bilmək; beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının fəaliyyət mexanizmlərini tənqidi təhlil etmək. |
| FTN7 Tədiyə balansını təhlil etməyi bacarmaq. |

| **“Müasir informasiya-kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|

| |
|---|
| FTN1 Yeni informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| FTN2 Müasir informasiya-kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| FTN3 İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas mərəhlələri haqqında biliklər qazanır. |
| FTN4 Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| FTN5 Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarını qiymətləndirir. |
| FTN6 Müasir Əməliyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| FTN7 Proqramlaşdırma bacarığına yiyələnir. |
| FTN8 Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| FTN9 Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| FTN10 İnformasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |
| FTN11 MS Office 365 paket proqramlarını mənimsəyir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| FTN12 Verilənlər bazası haqqında biliyə yiyələnir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |

| **“İxtisas yönümlü xarici dil” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Dilin qrammatik quruluşunu mənimsəmək, qrammatik səhvləri müəyyən etmək və qrammatik cəhətdən qüsursuz mətn parçaları formalaşdıra bilmək; dilin struktur vahidlərinin kommunikativ funksiyalarına yiyələnmək və onlardan düzgün istifadə etmək. |
| FTN2 Ünsiyyətin qurulması prosesində dilin zəngin resurslarından maksimum yararlanacaq səviyyədə dilin leksik korpusuna yiyələnmək; ixtisası ilə bağlı yazışma aparır, peşəsi ilə bağlı materialları yazılı və şifahi tərcümə etməyi bacarmaq. |
| FTN3 Nitqi dinləyici üçün anlaşıqlı, vacib məqamları nəzərə çarpdıracaq qədər ekspressiv və məntiqli şəkildə qurmaq; ixtisası ilə bağlı peşəkar əlaqələr və ünsiyyət qurmağı bacarmaq. |
| FTN4 Effektiv eşidib-anlama vərdişlərini inkişaf etdirmək. |
| FTN5 Dinlədiyi mətnlərin təhlilini apara bilmək; əsas fikirləri, detalları şərh etmək; spesifik ifadələrin, idiomların, terminlərin mənasını anlamaq; intonasiya və digər prosodik vahidləri fərqləndirmək və bunların əsasında danışanın mövzuya emosional-ekspressiv münasibətini izah etmək. |
| FTN6 Müxtəlif konkret və mücərrəd mövzulu, elmi və publisistik – yazılı mətnləri anlamaq, mətndə yer alan əsas fikirləri şərh etmək, mətnin əsas məqamlarını parafraz etmək və ümumiləşdirmək. |
| FTN7 Öyrənilən dilin əsas ünsiyyət vahidlərinin normativ, kommunikativ və etik aspektlərdə tətbiqini bacarmaq; Sərbəst fikir söyləmək, tutarlı və zəngin nitq nümayiş etdirmək. |

| **“Mülki müdafiə” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Fövqəladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilmək. |
| FTN2 Müasir dövrdə sülh və müharibə dövrlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen FH-da hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarında deqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək; |
| FTN3 Fövqəladə halların nəticələrinin aradan qaldırılmaıs üçün Dövlət sisteminin rolu və vəzifələrini |

| |
|---|
| bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək. |
| FTN4 Fövqəladə hallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək; |
| FTN5 Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafiə üzrə idarəetmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək; |
